

# Qarabağa qayıdış necə olmalıdır - təkliflər

*Son zamanlar ictimai debatlarda işğaldan azad edilən torpaqlarda məskunlaşma yenidən ciddi müzakirə edilir. Hətta paytaxtın işğaldan azad edilən şəhərlərdən birinə köçürülməsi fikri belə səsləndirilir. Bu məsələyə də emosiyaları, populizmi kənara qoyaraq yanaşmaq lazımdır". Bunu "Real" Partiyasının üzvü, iqtisadçı Natiq Cəfərli "Unikal"a açıqlamasında bildirib. Onun sözlərinə görə, paytaxtın yeri seçilərkən adətən təhlükəsizlik məsələsinə xüsusi diqqət verilir...*

Səh.9



# Hacıbala Abutalıbovun qeyri-adi planı...


# UNİKAL

№32 (2070) 3 sentyabr 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru





# Gənclər və İdman Nazirliyində "buxarlanan" milyonlar...

## BŞİH-in sabiq başçısı niyə siyasi razılıq olmadan özünün Aparat rəhbərini daha da irəli çəkmək istəyib?

*Yola saldığımız həftə Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) keçmiş Aparat rəhbəri Rasim Quliyevin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib və ortaya xeyli ilginc məqamlar çıxıb. Belə ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxs ifadə verərək ona qarşı irəli sürülən ittihamlarla razı olmadığını, heç bir vəzifə səlahiyyətlərini aşmadığını, irəli sürülən ittihamların hüquqi əsasının olmadığını deyib. Sitat: Mən Bakı Şəhər İcra Hakimiyyəti başçısının verdiyi səlahiyyətləri müvəqqəti icra etməyə məcbur idim. Mən icraya gələn məktubları müvafiq idarələrə göndərirdim.*

Səh.6

## "Kadr sahəsində ciddi islahatlara ehtiyac var"



*Ölkədə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə aparılsa da, hələ də məmurlar bu vərdişdən əl çəkmirlər. Hətta yüksək çinli məmurların həbsi də digərləri üçün dərs olmur. "Unikal" qəzetinə müsahibə verən Təkamül Partiyasının sədri Teyyub Qənioğlu ilə söhbətimiz də elə bu mövzu ətrafında oldu.*

Səh.4

## Əbülfəs Qarayevin həbsi yenidən gündəmə gəldi



*Azərbaycanın sabiq Mədəniyyət naziri Əbülfəs Qarayevin həbsi yenidən gündəmə gəlib. Bu barədə "Unikal" qəzetinə məlumatlı mənbədən bildirilib. Mənbənin dediyinə görə, buna səbəb Bakı Ağır Cinayətlər Məhkəməsində Mədəniyyət nazirinin sabiq müavini Rafiq Bayramovun cinayət işi üzrə...*

Səh.5

## Nazim İbrahimovun özünüxilas cəhdi



*Yola saldığımız həftə Bakı Hərbi Məhkəməsində sabiq birlik komandiri, general-leytenant Rövşən Əkbərovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib. İclasda şahid qismində Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimov ifadə verib. O, 2001-ci il mayın 31-dən iyunun 1-nə keçən gecə Kiyev şəhəri...*

Səh.7

# "Hədələyirdilər ki, çimərlik geyimində çıxsanız, zalı partladacağıq" - Azərbaycanlı model

***"Burada inkişafdan söz gedə bilməz. Modelyerlər kolleksiyalar hazırlamalıdır. Daimi yaz-yay, payız-qış kolleksiyası olmalıdır. Dəfilə keçirilməli və modellər podiuma çıxmalıdır. Onda model biznesi inkişaf edər. Bizdə bu məsələ davamını tapmayıb. Ara-sıra baş verir. İndi model biznesi ancaq gec-gec keçirilən dəfilədən, klip, reklam çəkilişində qalıb. Ən çox da tədbirdə, mükafatlandırma mərasimlərində hostes kimi model axtarılır. Pandemiyada isə bu yoxdur".***

"Unikal" xəbər verir ki, bu sözləri axşam.az-a açıqlamasında model Natella Kərimova deyib. O, Azərbaycanda model biznesinin son vaxtlar inkişafdan dayanmasından danışıb: "Son 2 ildə hər şey dayanıb. 2000-ci ilin əvvəlində bu sahədə sıçrayış var idi, ümid bəsləyirdik ki, gələcəkdə model biznesi inkişaf edəcək. Amma əksi oldu. Ümid edirik ki, bu, hələ də son deyil".

N.Kərimova bildirib ki, hazırda brendlərin reklamlarında tanınmış sənət adamlarına üstünlük verməsi uğursuz seçimdir: "Hər brendin öz siyasəti var. Hansısa məşhur simanı





dəvət etmək necədir? Düşünürəm ki, bu gün bir brendi reklam edən məşhur sima, sabah başqasına gedir. Bu da inandırıcı görünmür. Xaricdə hər brend özünə bir sima seçir. İnsanlar həmin markanı o insanla tanıyır və onlarda inam yaranır".

Model Azərbaycanda keçirilən gözəllik yarışmalarını tənqid edib: "Müəyyən vaxtdan sonra gözəllik müsabiqələrinin səviyyəsi aşağı düşdü. Bizim vaxtımızda səviyyəli yerlərdə keçirilirdi. Son vaxtlar zirzəmidə keçirilən müsabiqələr olurdu. Hamını dəvət edirdilər, parametrlər uyğun gəlmiyənlər yer alırdı... Əvvəllər bu cür müsabiqələrə yanaşma fərqli idi. 1996-cı ildə radikal islamçılar şərt qoymuşdu ki, müsabiqədə qızlar çimərlik geyimində çıxsalar, zal partladılacaq. Buna məhəl qoymadıq, hətta çimərlik geyiminin üstündən çadra geyindik, səhnədə çıxardıq. Əvvəl hamı adla tanıyırdı seçilənləri. İndi "miss"lərin sayı adi adamlardan çoxdur. İlk dəfə gözəllik yarışması 1996-cı ildə oldu. 2001-ci ildə beynəlxalq səviyyədə keçirildi. Bir-iki il səviyyəli oldu, sonra rüşvət girdi araya. Kiminin imkanı var idi, başqası digər məqsədlə gəlirdi. Artıq məqsəd çəkilişlər, moda deyildi. Xaricdə bu cür yarışmalarda modellərə sual verirlər ki, başqa nə işlə məşğul ola bilərsiniz? İndi bu cür sual yoxdur".

N.Kərimova son illər özünün də model sahəsindən uzaqlaşmasının səbəbini açıqlayıb: "Ən çox reklama çəkilən sima olmuşam. İki mobil operatorun reklamında oynamışam. Simam yaddaqalan deyil, mütəmadi olaraq başqa reklamlara çəkilirəm. Amma son vaxtlar keyfiyyətdən çox kəmiyyətə önəm verilir. Çox ucuz təkliflər gəlir. Səviyyəmi aşağı sala bilmərəm. Tədbirlər aparıram, ona görə də sırf modellik etmirəm. Əvvəl model məktəbi açdım, öyrətmək istədim. Gördüm ki, tələbat yoxdur. İndi menecer kimi məsləhət verirəm. Amma ciddi yönləndirirəm, çünki modellərə başqa təkliflər gələ bilər. Ona görə də ciddi yanaşıram. Əvvəl Türkiyədən aparıcılıq təklifi almışdım. O vaxt razılaşmadım. İndi peşman olmuşam".

# Sərxan Sərxan Mətanət Əsədova ilə bir arada

***Xalq artisti Sərxan Sərxan Bakıya gəlib. Müğənninin yeni fotosunu Mətanət Əsədova sosial şəbəkədə yayımlayıb.***

"Mənim üçün çox dəyərli və hörmətli olan əzizim, estradamızın canlı əfsanəsi Sərxan bəylə bir gün... Çox xoş keçdi. Xoş gəldin, əzizim" deyə, Əsədova paylaşımına yazıb.

Qeyd edək ki, S.Sərxan uzun illərdir Rusiyada yaşayır. O, bir müddət əvvəl verdiyi "O vaxt Bakı ilə rayon əhalisinin çox dərin fərqi vardı. Şəhər əhalisi şəhərdən getdi, onların yerinə rayon əhalisi gəldi. Onların da təqsiri yoxdur. Çünki bu, yazıqlar şəhərdə necə yaşamağın, konsertlərə getməyin



qaydasını bilmirlər. Onlar nə bilir, konsert nədir, teatr nədir? Onlar bunu indi-indi öyrənirlər. Əvvəllər, rayondan gələn tələbə beş il oxuyandan sonra şəhər mədəniyyətini qəbul edirdi, olurdu Bakı sakini. İndi Bakıda əsasən rayon əhalisidir" açıqlamasına görə Azərbaycanda tənqid edilmişdi.

# Roza Zərgərlinin aktyor oğlu kimlə nişanlanıb?

***Müğənni Roza Zərgərlinin aktyor oğlu Corc Qafarovun "Best Model of Turkey 2020" birincisi Melisa İrmakla nişanlandığı məlum olub.***



"Unikal" sherg.az-a istinadən xəbər verir ki, bu barədə cütlüyün nişan çəkilişini edən rejissor Nail Naiboğlu məlumat yayıb. Sənətçi N.Naiboğlunun profilində yerləşdirdiyi videonu paylaşaraq xəbəri təsdiqləyib.

Qeyd edək ki, ötən ay cütlüyün nişan mərasimi keçirilib.

# Əməkdar artist yenidən aparıcılığa başladı



***Əməkdar artist Rəşad İlyasov yenidən aparıcılığa başlayıb.***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bu barədə sənətçi sosial şəbəkədə məlumat verib. O bildirib ki, bu gündən "Mədəniyyət" kanalında yayımlanan "Səhərçağı" verilişində aparıcılıq edəcək.

Qeyd edək ki, 2019-cu ildə "Space" TV-də yayımlanan "Hər səhər" verilişində müğənni Rüfət Axundov mahnı oxuyarkən R.İlyasovla birlikdə dəfələrlə qeyri-etik ifadələrdən istifadə etmişdi.

# Azərbaycanlı musiqiçi dənizdə boğulub öldü



***Azərbaycanlı gənc musiqiçi Məmmədbağır Misiroğlu dünyasını dəyişib.***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, klarnet ifaçısı dənizdə batıb. Bu haqda sənət adamları məlumat yayıb. Bildirilib ki, Məmmədbağır ötən gün vəfat edib.

Qeyd edək ki, Məmmədbağır bir çox müğənninin ansamblında çalışıb.



# Lavrov "Taliban"a müraciət etdi

***"Moskvada ümid edirlər ki, "Taliban" hərəkatı Pənçşir əyalətində döyüşlərə başlamaqla bağlı öz planlarından imtina edəcək və Əfqanıstanın digər gücləri ilə dialoqa başlayacaq".***

"Unikal" xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib.

XİN başçısı münaqişə tərəfləri arasında danışıqların uğurla başa çatacağına ümid etdiyini söyləyib.

"Ümid edirəm ki, danışıqlar yarımçıq qalmayacaq və hər hansı qərar qəbul olunacaq. Döyüş əməliyyatlarının bərpası ilə bağlı təhdidlər isə reallaşmayacaq", - deyə Lavrov vurğulayıb.

# Xankəndidə erməni deputatlara hücum etdilər

***Ermənistan parlamentinin bir neçə deputatı Xankəndidə hücuma məruz qalıb.***

"Unikal" "Qraparak" qəzetinə istinadən xəbər verir ki, qondarma rejimin 30 illiyi ilə bağlı tədbirlərə qatılmaq üçün Xankəndi şəhərinə gələn deputatlar yerli sakinləri qəzəbləndirib.



Belə ki, müharibədə qohumlarının ölməsinə görə parlament üzvlərini ittiham edən ermənilər iqtidardakı "Vətəndaş Müqaviləsi" partiyasından olan deputatların qaldığı "Armenia" mehmanxanasına hücum çəkiblər. Onlar deputatların "başını əzəcəklərini" elan ediblər.

Əraziyə gələn polis və sülhməramlı qüvvələrin köməyi ilə insidentin qarşısı alınıb.

# FHN-dən əhaliyə hava xəbərdarlığı

***Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, sentyabrın 2-si axşamdan başlayaraq 4-ü səhərədək ölkə ərazisində hava şəraitinin dəyişəcəyi, güclü külək əsəcəyi, bəzi yerlərdə intensiv yağış yağacağı və şimşək çaxacağı proqnozlaşdırılır.***

"Unikal" xəbər verir ki, gözlənilən hava şəraiti ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, güclü küləyin səbəb ola biləcəyi təhlükələrdən qorunmaq üçün diqqətli olmağı, müvafiq təhlükəsizlik qaydalarına ciddi əməl etməyi və zərurət olmadan bayıra çıxmamağı tövsiyə edir.

Həmçinin, güclü külək zamanı, xüsusilə açıq hava şəraitində baş verən yanğınların söndürülməsi mürəkkəbləşdiyindən yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməlidir.

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!

Təhlükə zamanı "112"-yə zəng edin!

# Gənclər və İdman Nazirliyində "buxarlanan" milyonlar...



***Tokio-2020 Yay Olimpiya oyunlarında idmançılarımızın qızıl medal qazana bilməməsi cəmiyyətdə müzakirə mövzularından biridir. Bu da səbəbsiz deyil: Azərbaycan idmana dövlət qayğısı baxımından dünyada nümunəvi ölkə imicinə malikdir, "idman ölkəsi" olaraq tanınır. Odur ki, son Olimpiadanı həm qızıl medalsız başa vurmağımız, həm də London-2012 və Rio-2016 Yay Olimpiya oyunları ilə müqayisədə daha zəif nəticə göstərilməsi təəccüb doğurur.***

Lakin son illərdə Gənclər və İdman Nazirliyi (GİN) daxilində baş verən neqativliklər belə bir təəccübə əl yeri qoymur. Adıçəkilən qurumda əməlli-başlı korrupsiya mexanizmi qurulub, nəticədə nazirliyin məsul olduğu sahələrdə əməlli-başlı durğunluq hökm sürür.

### Olimpiya idman komplekslərinə ayrılan pullar hara gedir?

Başlayaq GİN-in idman sahəsinə məsul nazir müavini İsmayıl İsmayılovdan... Uzun illər boyunca Azərbaycanın şəhər və rayonlarında olimpiya idman kompleksləri inşa edilib, bu komplekslərin tikintisi üçün milyonlarla manat xərclənib. Üstəlik, sözügedən idman qurğularının saxlanılması üçün büdcədən hər il külli miqdarda vəsait ayrılır.

### Məqsəd?

Məqsəd aydındır: Azərbaycanda bacarıqlı, qabiliyyətli idmançılar yetişdirmək və onlardan mötəbər turnirlərdə faydalanmaq! Lakin son Olimpiadada ölkəmizi təmsil edən yığmanın əksər üzvləri başqa ölkələrdən cəlb edilən və əksəriyyəti də uğurzu nəticə göstərən idmançılar - legionerlər idi. Sual olunur: bir halda ki, Azərbaycanın beynəlxalq yarışlarda bu qədər legionerə ehtiyacı var, elə isə olimpiya idman komplekslərinin funksionallığı nədən ibarətdir? Məsələ burasındadır ki, nazir müavini İsmayıl İsmayılovun kurasiya etdiyi bu idman qurğuları korrupsiya mənbəyinə çevrilib. Məsələn, həmin komplekslərin saxlanılması üçün tələb olunan büdcə şişirdilir, ardınca ayrılan vəsaitlərin 25-30 faizi geri qayıdır və faktiki olaraq İ.İsmayılovun cibinə gedir. Üstəlik, GİN-in yerli idarələri də adıçəkilən nazir müavininin nəzarətindədir və oxşar hal həmin idarələrlə bağlı da yaşanır. Əvəzində isə olimpiya idman komplekslərinin əksəriyyətinin fəaliyyəti tamamilə iflic vəziyyətindədir, təyinatından kənar fəaliyyət göstərir və bəziləri üçün gəlir rolunu oynayır.

### Qaranlıq qrantlar...

Başqa bir nazir müavini İntiqam Babayevlə bağlı da xoşagəlməz iddialar mövcuddur. Bildirilir ki, nazirlikdə QHT-lərlə və idman federasiyaları ilə işi kurasiya edən Babayev hansısa (!) səbəbdən bir neçə deputatın himayəsindəki qeyri-hökumət təşkilatlarını böyük bir "səxavət"lə maliyyələşdirməkdədir.

Həmin millət vəkilləri arasında Şahin İsmayılov, Vüqar İsgəndərov, Nigar Arpadari, Könül Nurullayeva var. Maraqlıdır ki, burada da olimpiya idman kompleksləri ilə bağlı "ssenari" işə düşür: həmin QHT-lər üçün ayrılan vəsaitlərin də 35-40 faizi geri qayıdır və faktiki olaraq mənimsənilir. Məlumatlı mənbələrin sözlərinə görə, GİN rəhbərliyi faktiki olaraq sağlam gənclərə və onların təmsil olunduqları qeyri-hökumət təşkilatlarına qarşı laqeyd davranır, həmin gənclərin layihələrinə maliyyə dəstəyi verməkdən imtina edir. Əli Həsənov - Azad Rəhimov - İntiqam Babayev üçbucağının "məhsulu" olan sözügedən ayrıseçkilik isə ölkə rəhbərliyinin gənclər siyasətinin məqsəd və hədəflərinə tamamilə ziddir. İddialara görə, nazir müavini İntiqam Babayev həmçinin ayrı-ayrı şəhər və rayonlarda yaradılan Gənclər Evlərini də nəzarətində saxlayır, həmin Gənclər Evlərinin fəaliyyətinin maliyyələşdirilməsi adı altında da böyük məbləğdə pullar "silinir".

### Nazirliyin torpaq sahəsində göydələn tikilibmiş...

GİN daxilində dərin kök salan korrupsiya ilə bağlı faktlar bununla kifayətlənmir. İddialardan belə məlum olur ki, nazirliyin sabiq və mərhum rəhbəri Azad Rəhimovla yanaşı, onun müavinləri də vəzifədə olduqları müddətdə sərvətlərini görünməmiş dərəcədə artırıblar. Məsələn, A.Rəhimov vaxtilə nazirliyin "Gənclik" metrostansiyası yaxınlığındakı torpaq sahəsini özəlləşdirib, daha sonra isə onun oğlu Arif Rəhimov həmin torpaq sahəsində göydələn inşa etdirib. Həmin yüksək mərtəbəli yaşayış binasındakı mənzillər fantastik qiymətə satışa çıxarıldıqda isə alıcılar arasında mərhum nazirin müavinləri, həmçinin nazirliyin digər yüksək vəzifəli şəxsləri də olublar. Azad Rəhimovun Bakıda təşkil olunan "Formula-1" yarışları üçün ayrılan pulların bir qismini də müxtəlif vasitələrlə mənimsədiyinə dair iddialar var. Hazırda isə həmin pullar onun Londonda yaşayan oğlu tərəfindən İngiltərə paytaxtında şəxsi biznes məqsədləri üçün "fırlanır". Nazir müavinləri İsmayıl İsmayılovla İntiqam Babayevə gəlincə, onlar da özlərinə dəbdəbəli həyat və geniş biznes şəbəkəsi qurmağa nail olublar. Hər iki nazir müavininin paytaxtın "milyonçular məhəlləsi" kimi tanınan Teymur Əliyev küçəsində, eləcə də digər mərkəzi yerlərində mənzilləri, Novxanı, Mərdəkan və Şüvəlanın dənizkənarı ərazilərində çoxmilyonluq mülkləri var. Əvəzində isə məlum deyil ki, məsələn, külli miqdarda vəsaitin ayrılmasına baxmayaraq Gəncə şəhərindəki olimpiya idman kompleksinin inşası niyə yubanır, bu kompleksin tikintisi hansı səbəbdən başa çatdırılmır? Yoxsa həmin idman qurğusu üçün nəzərdə tutulan pulların bir hissəsi də kirli maraqlara qurban gedib?! Yeri gəlmişkən, nazir müavinlərindən İ.İsmayılovun tikinti biznesinin varlığı kimsəyə sirr deyil. Onun bu işləri Akif adlı qudası ilə birgə həyata keçirdiyi, vəzifəsinin verdiyi imkanlardan yararlanaraq hətta nazirliyin bir çox tikinti layihələrini də öz şirkətlərinə gördürdüyü barədə məlumatlar dolaşır. Gəncədə təhvil verilməsi yubanan olimpiya idman kompleksi ilə bağlı müəmma da məhz bu kontekstdə ayrıca maraq doğurur. Sadalanan bütün bu iddialar fonunda, yazının lap əvvəlində də qeyd etdiyimiz kimi, nə sonuncu Yay Olimpiya oyunlarında idmançılarımızın qeyri-qənaətbəxş çıxışı, nə də ayrı-ayrı idman federasiyalarının artıq formal xarakter daşıyan fəaliyyəti təəccüb doğurmamalıdır. Eyni zamanda cənab Prezidentin Azərbaycanda gənclər və idman siyasətinin gücləndirilməsinə xüsusi diqqət yetirdiyi, bu məqsədlə isə dövlətin hər cür dəstək və qayğı göstərməsinin müqabilində GİN-də çoxsaylı nöqsanların varlığı qəbuledilməzdir. Aydın görünür ki, adıçəkilən qurumda aidiyyatı qurumların genişmiqyaslı yoxlamalar aparmasının, təftişlər həyata keçirməsinin vaxtı çatıb. Şübhə yoxdur ki, belə yoxlamalar, təftişlər aparılacağı təqdirdə, məsələn, Əbülfəs Qarayevin zamanında Mədəniyyət Nazirliyini bürüyən rüşvət və korrupsiya mexanizmindən geri qalmayan nöqsanlar, qanunsuzluqlar ortaya çıxacaqdır.

***Elvin Rüstəmov***

# Qarabağa qayıdış necə olmalıdır - təkliflər

***Son zamanlar ictimai debatlarda işğaldan azad edilən torpaqlarda məskunlaşma yenidən ciddi müzakirə edilir. Hətta paytaxtın işğaldan azad edilən şəhərlərdən birinə köçürülməsi fikri belə səsləndirilir. Bu məsələyə də emosiyaları, populizmi kənara qoyaraq yanaşmaq lazımdır".***

Bunu "Real" Partiyasının üzvü, iqtisadçı Natiq Cəfərli "Unikal"a açıqlamasında bildirib. Onun sözlərinə görə, paytaxtın yeri seçilərkən adətən təhlükəsizlik məsələsinə xüsusi diqqət verilir: "Bu mənada paytaxtın Bakıdan Qarabağdakı şəhərlərdən birinə köçürülməsi İran və Ermənistana (orada da minlərlə Rus qoşunlarının olduğunu nəzərə alsaq) arazicə yaxın olduğundan təhlükəsizliklə bağlı məsələdə müəyyən problemlər yarada bilər. Bakı paytaxt olaraq qala bilər, amma şəhərin yükünün azaldılması mütləq baş verməlidir. Elə bir strateji qərarlar alınmalıdır ki, həm işğaldan azad edilən torpaqlarda 2030-cu ilə qədər 1,5-2 mln. vətəndaşımız məskunlaşsın, həm də paralel olaraq Bakının artıq çəkilməz olan yükü azalsın. Bunun üçün də bəzi nazirlik, dövlət idarələri, universitetlər işğaldan azad olunmuş şəhərlərə köçürülməlidir. Bunun baş verməsi orada iqtisadi aktivliyin yaranmasına və inkişafa səbəb olacaq. Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyinin bəzi bölmələrinin, Mərkəzi Bankın və s. Bakıda olmasının heç bir önəmi yoxdur. Universitetlərin də Bakıda cəmlənməsi doğru deyil. Məsələn, Tibb Universiteti Ağdama, Mühəndislik Universiteti Qubadlı və ya Füzuliyə, İqtisadiyyat Universitetinin Hadruta, Mədəniyyət Universitetinin isə Şuşaya köçürülməsi daha doğru olardı . Belə olarsa, həmin bölgədə ciddi şəhər mədəniyyəti yaranar. Bu mənada Bakının yükünün azaldılması üçün indi gözəl imkan yaranıb və ondan istifadə etməliyik. Universitetlərin işğaldan azad olunmuş şəhərlərdə yerləşməsi həm məskunlaşmanı sürətləndirəcək, həm də onların ətrafında iqtisadi fürsətlər yaradacaq. Kirayə mənzillər, kafelər, restoranlar, tələbə şəhərcikləri, müəyyən istehsal sahələri orada iqtisadi canlanmaya da gətirib çıxaracaq".

Natiq Cəfərli onu da qeyd edib ki, əgər işğaldan azad edilən ərazilərimizdə iqtisadi fürsətlər yaranmasa, yenə də yerli icra başçılarının özbaşnalığı, məmur biznesi, korrupsiya, inhisarçılıq olacaqsa, bir müddətdən sonra ora köçən əhali yenidən Bakıya üz tutacaq: "İlk növbədə idarəetmə təkmilləşdirilməli, yeni formaya keçid təmin edilməlidir - yəni, prezidentin fərmanı ilə yaradılan 14 iqtisadi rayon arasında ərazisinə görə ən böyüklərindən biri Qarabağ, digəri Şərqi Zəngəzur iqtisadi rayonudur. İndi növbəti addım atılmalıdır - ölkədə rayonlar üzrə inzibati bölgü ləğv edilərək, yeni yaradılan iri iqtisadi rayonlar üzrə inzibati-ərazi bölgüsünə keçilməlidir, regional idarəetmə strukturları qurulmalıdır. Bundan sonra bir sıra mərkəzi qurumların işğaldan azad olunmuş ərazilərə köçürülməsi təmin edilə bilər. İdarəetmənin effektivliyi artmasa, ədalətli məhkəmə sistemi təsis olunmasa, seçkili yerli özünüidarə institutları effektiv fəaliyyət göstərməsə iqtisadi aktivliyin yaranması mümükün deyil..."



Milli Məclisin deputatı Fazil Mustafa məsələyə münasibət bildirərkən öncə Şuşa səfəri barədə fikirlərini bölüşüb: "Allahın lütfüdür ki, belə bir şəhərdə ayaq izlərimiz oldu. Bu sevindirici haldır. Azərbaycanın Şuşa üzərində hakimiyyətinin bərpa olunması bütün atributlarla birgə baş verir. "Xarıbülbül" festivalından sonra Vaqif Poeziya Günlərinin keçirilməsi mənalı mesajdır".

Deputat onu da bildirib ki, Şuşaya Azərbaycan mədəniyyətinin yenidən dirilişi kimi baxılmalıdır: "Şuşanın bütün dağıdılmış yerlərinə ürəkağrısı ilə baxırıq. Burada erməni vəhşiliklərinin şahidi olduq. Qayıdışımız Şuşanı yenidən dirçəldəcək. Təbiət olaraq gözəldir, amma dağıdılmış yerləri görəndə ürəkağrısı ilə seyr edirsən. Bütövlükdə Şuşaya Azərbaycan mədəniyyətinin yenidən dirilişi kimi baxılmalıdır. Hər şey sanki mədəniyyət abidəsidir. Buranı həqiqətən mədəniyyət ocağına çevirmək lazımdır ki, Azərbaycanın dəyərini anlamaq istəyənlər Şuşaya gəlsin. Şəhidlərimiz böyük bir möcüzəni gerçəkləşdiriblər. Bu şəhəri geri qaytarmaq həqiqətən də möcüzədir. Bizim milli qürurumuzu uca tutdular. Bu da onların əbədi olaraq Azərbaycana verdiyi xidmət kimi xatırlanacaq".

Deputat qeyd edib ki, Şuşa ilə yanaşı, Xankəndi və Xocalıya da qayıdacağıq: "Müşahidələrim onu deməyə əsas verir ki, ermənilər burada yaşaya bilməyəcəklər. Bu şərtlərdə, standartlarda yaşamaq mümkün deyil. Ən azı ona görə ki, ermənilər bütövlükdə Azərbaycanın nəzarəti altındadır. Xankəndi ayağımızın altında görünür. Bu, artıq psixoloji durumdur. Bundan qurtulmaq mümkün deyil. Axşamlar işıqlarını yandırırlar, guya orada həyat var. Amma bu həyat, ümidsiz bir həyatdır. Çox vaxt Azərbaycanda bəzi boşboğazlar deyirlər ki, Xankəndini, Xocalını niyə xatırlamırıq. Biz hamımız xatırlayırıq, onlar da bizə qayıdacaq. Amma biz bunu fərqli formada edəcəyik. Artıq psixoloji savaş gedir. Çünki burada yaşamaq istəklərini yenidən bərpa edə bilməyəcəklər. Şuşa strateji açar rolunu oynayır, Şuşadan o tərəf bitkin vəziyyətdədir. Bu, həm də o deməkdir ki, ermənilərin gələcəyi bizim əlimizdədir. Ermənilər bunu hiss edirlər, ona görə də səbrlə digər torpaqlarımızı da qaytaracağıq. Hansı ermənilər ki, Azərbaycan vətəndaşlığını qəbul edəcəklər, onlar burada qalacaq".



**Natiq Cəfərli: "Bəzi dövlət idarələri, universitetlər azad olunmuş şəhərlərə köçürülməlidir"**



**Fazil Mustafa: "Şuşa ilə yanaşı, Xankəndi və Xocalıya da qayıdacağıq"**

***Z.Məmmədli***



## Sabiq icra başçısına yeni vəzifə verildi

***Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Nəzarət Təftiş Komissiyasının (MNTK) üzvü Musa Musayev Dairə Seçki Komissiyasının sədri vəzifəsinə seçilib.***

O, 20 saylı Nərimanov ikinici Dairə Seçki Komissiyasına rəhbərlik edəcək.

Musa Musayev Qaynarinfo-ya açıqlamasında məlumatı təsdiqləyib. Bildirib ki, YAP-ın etimadını doğruldacaq.

Qeyd edək ki, Musa Musayev 2000-2005-ci illərdə Milli Məclisin deputatı, 2006-2010-cu illərdə isə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı olub. Keçmiş deputat YAP-ın qurucu üzvlərindəndir.

## Ombudsman tanınmış aparıcıya vəzifə verdi

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatına yeni mətbuat katibi təyin edilib.***

Bu barədə "Unikal"a Ombudsman Aparatından məlumat verilib.

Bildirilib ki, Emil Şahzadə Ombudsman Aparatının İnformasiya və ictimaiyyətlə əlaqələr sektorunun müdiri vəzifəsinə təyin olunub.

O, uzun illər televiziya və radio jurnalistikası sahəsində fəaliyyət göstərib.

## Azərbaycan və Türkiyə hərbçiləri birgə təlimlərdə

***Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən hər iki qardaş ölkənin hərbçiləri birgə təlim-məşqlərə başlayıb.***

Müdafiə Nazirliyindən Unikal.org-a verilən məlumata görə, Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən məşqlərin əsas məqsədi döyüş əməliyyatlarının aparılması zamanı iki ölkə ordularının bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə vərdişlərinin inkişaf etdirilməsidir. Məşqlərdə həmçinin sualtı hücum və sualtı müdafiə əməliyyatlarının aparılması tapşırıqları da icra ediləcək.

İkitərəfli birgə məşqlər sentyabrın 12-dək davam edəcək.

## "YAŞAT"ın Çağrı Mərkəzinə daxil olan müraciətlərin sayı açıqlandı

***"YAŞAT" Fondunun 8110 Çağrı Mərkəzinə 55 mindən çox müraciət daxil olub.***

Bu barədə "Unikal"a Prezident yanında Vətəndaşlara Xidmət və Sosial innovasiyalar Üzrə Dövlət Agentliyindən məlumat verilib.

Qeyd olunub ki, şəhidlərimizin ailə üzvlərinin və yaralıların ümumilikdə 8 mindən çox müraciəti qeydiyyata alınaraq aidiyyəti üzrə yönləndirilib. Bunların 2 300-ə yaxını şəhidlərimizin ailə üzvlərinin, 6 000-dən çoxu isə yaralılarımızın müraciətləridir.

Xatırladaq ki, "YAŞAT" Fondunun yashat.gov.az portalı bu ilin yanvarın 8-də istifadəyə verilib. Həmin tarixdə həmçinin Fondun 8110 Çağrı Mərkəzi fəaliyyətə başlayıb. 8110 Çağrı Mərkəzinə zənglər tam ödənişsizdir.

# Prezidentdən dövlət orqanları ilə bağlı fərman



***Prezident İlham Əliyev "Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" fərmanında dəyişiklik edilməsi barədə fərman imzalayıb.***

Unikal.org xəbər verir ki, fərmanın 8.1-ci bənd ləğv edilib.

Sənədə əsasən, bu fərmanın 5-ci və 6-cı hissələrinə əsasən yaradılan daxili idarəetmə proseslərinin elektron sistemlərinin istifadəçiləri üçün elektron imza və Data Mərkəzindən istifadə ilə bağlı tarifləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq edilməlidir

Nazirlər Kabinetinə "Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanının 10.3-2-ci bəndində nəzərdə tutulmuş tapşırığın icrasını iki ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təmin etmək tapşırılıb.

# Universitetlərdə tədris distant olacaq? - AÇIQLAMA

***Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Cəsarət Valehov tədris ilinin başlanması ilə əlaqədar yayılan məlumatlarla bağlı media nümayəndələrinə müraciət edib.***

Unikal.org xəbər verir ki, müraciətdə deyilir: "Yeni tədrsi ilinin başlanması ilə bağlı vəziyyət təhlil olunur, bu sahədə aparıcı beynəlxalq qurumların tövsiyələri araşdırılır və buna uyğun olaraq fəaliyyət istiqamətləri müəyyən ediləcək.

Tədrisin bütün pillələr üzrə hansı tarixdə və formada təşkil ilə bağlı qəbul ediləcək qərarlara dair çox yaxın günlərdə ətraflı məlumat veriləcək".

# Ərdoğan: "Türkiyə iqtisadiyyatı dünyada ən sürətlə böyüyən ikinci iqtisadiyyatdır"

***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada Jandarm və Sahil Mühafizəsi Akademiyasının məzun mərasimində çıxış edib.***

Dövlət başçısı çıxışında ölkə iqtisadiyyatında qeydə alınan son rəqəmlərə də toxunub.

Prezident cari ilin ikinci rübü üzrə bu gün açıqlanan rəqəmlərə əsasən, aprel-iyun aylarında Türkiyə iqtisadiyyatının 21.7% artaraq, dünyanın ikinci ən sürətlə böyüyən iqtisadiyyatına çevrildiyini bildirib.

O, həmçinin məşğulluğun son 35 ayın ən yüksək səviyyəsində olduğunu, ixracatın artması hesabına ticarət kəsirnin azaldığını qeyd edib.

Ərdoğan vurğulayıb ki, Türkiyə iqtisadi islahatlarda kimsədən işarə gözləmədiyi kimi, terrorla mübarizədə də heç kimdən izin almır.

# Dövlət Dəniz Agentliyindən XƏBƏRDARLIQ

***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin Gəmilərin Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzinə təhlükəli hidrometeoroloji hadisə haqqında xəbərdarlıq daxil olub.***

"Unikal"ın nazirliyin yaydığı məlumata istinadən xəbər verir ki, xəbərdarlıqda bu gün axşam saatlarından başlayaraq Xəzər dəniz akvatoriyasında Şimal-Qərb, Şimal küləyinin 13 - 18, arabir 20 - 23, sentyabrın 3-ü axşamdan 4-ü səhərə kimi 18 - 23, arabir 25 - 30 m/s-dək güclənəcəyinin gözlənildiyi bildirilir. Dalğanın hündürlüyünün isə 2.0 - 3.0, sonrakı inkişafda 4.0 - 6.0 metrə çatacağı proqnozlaşdırılır.



Qeyd edək ki, bu gün hava proqnozu Dövlət Dəniz Agentliyinin Milli Mərkəzinə daxil olan andan etibarən gəmi sahibləri, liman kapitanları, liman nəzarət müfəttişləri müvafiq tədbirlərin həyata keçirilməsi və xidmətin gücləndirilməsi ilə bağlı təlimatlandırılıb. Gəmilərin Hərəkətinin İdarəetmə Xidmətinin ərazisində lövbərdə duran və hərəkətdə olan gəmilərə məlumatlar ötürülüb, müvafiq təlimatlar verilib.

Bununla yanaşı, hava şəraitinə uyğun olaraq gəmilərin təhlükəsiz şəkildə lövbər sığınacaqlarında dayanması təmin olunur. Milli Mərkəzin təcrübəli kapitanları tərəfindən gəmilər müvafiq lövbər sığınacaqlarına yerləşdirildikdən sonra da onların təhlükəsiz lövbərdə durma prosesi radarlar vasitəsilə fasiləsiz olaraq nəzarətdə saxlanılır.

Hava şəraitinə uyğun olaraq Milli Mərkəz tərəfindən gəmilərin hərəkətinə və limanlara giriş-çıxışına icazə verilməsi, hərəkətin məhdudlaşdırılması, limanların bağlanması barədə tədbirlər görülür.

Bu gün, həmçinin dənizdə neft - qaz platformalarının aid olduğu qurumlar hava xəbərdarlığı ilə bağlı məlumatlandırılıb. Hər zaman olduğu kimi, bu gün də Azərbaycanın sahilboyu ərazilərində son naviqasiya və rabitə stansiyaları tam gücü ilə çalışır.

Dövlət Dəniz Agentliyinin Milli Mərkəzi nəzarət etdiyi ərazidə mövcud olan bütün texniki vasitələrlə müşahidənin gücləndirilməsi və gəmilərin hərəkətinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində fasiləsiz xidmət həyata keçirilir. Eyni zamanda Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi, Müdafiə Nazirliyinin Hərbi Dəniz Qüvvələri, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi növbə xidmətləri, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin müvafiq növbətçi xidməti, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və BP şirkətinin müvafiq qurumları ilə mütəmadi qarşılıqlı məlumat mübadiləsi həyata keçirilir.

# AQTA 15 müəssisədə pozuntular aşkarladı

***Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) pandemiya dövrünün tələblərinə, bu sahədə müvafiq qanunvericiliyin icrasına, həmçinin yeni növ koronavirusun (COVID-19) profilaktikasına dair Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş metodiki göstərişlərin icrasına nəzarət məqsədilə ictimai iaşə obyektlərində reydləri davam etdirir.***

AQTA-dan "Unikal"a verilən məlumata görə, nəzarət tədbirləri çərçivəsində 2021-ci il sentyabrın 1-də ölkə üzrə 422 ictimai iaşə obyektində 716 monitorinq keçirilib. Monitorinqlər zamanı 15 müəssisədə qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması faktları aşkar olunub. Aşkar edilmiş nöqsanlarla bağlı İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq müvafiq tədbirlər görülüb.

Pozuntular aşkar edilmiş ictimai iaşə müəssisələri aşağıdakılardır:



Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəs., Hacı Zeynalabdin Tağıyev küç., ev 1230 ünvanında yerləşən, fiziki şəxs Mustafayev İsrafil Natiq oğluna məxsus "Şanı" kafesi;

Bakı şəhəri, Sabunçu rayonu, Eldar Xəlilov küçəsi 68 ünvanında yerləşən, fiziki şəxs Novruzov Mahmud Rövşən oğluna məxsus kafe;

Bakı şəhəri, Nizami rayonu, Q. Qarayev prospektində yerləşən, hüquqi şəxs "Es-Er" MMC-yə məxsus restoran;

Bakı şəhəri, Nizami rayonu, Q. Qarayev prospektində yerləşən, fiziki şəxs Seyidli Xəyyam Məhəmmədəli oğluna məxsus "Şaurma N1" restoranı;

Bakı şəhəri, Səbail rayonu, Əbdülkərim Əlizadə küçəsində yerləşən, fiziki şəxs Zeynalov Urfan İbad oğluna məxsus "Lounge" restoranı;

Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəs., Alim Şəbiyev küçəsi 9G ünvanında yerləşən, fiziki şəxs Əliyev Səyyad Azər oğluna məxsus kafe;

Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəs., 28 May küç., ev 22 ünvanında yerləşən, fiziki şəxs Tatarcıoğlu Abdurrahmana məxsus kafe;

Bakı şəhəri, Qaradağ rayonu, Sahil qəs, Salyan şosesi, ev 25 ünvanında yerləşən, fiziki şəxs Əzizov Lətif Baba oğluna məxsus kafe;

Bakı şəhəri, Sabunçu rayonu, Yavər Əliyev küçəsi 1 ünvanında yerləşən, fiziki şəxs Fətəliyev Mübariz Füzuli oğluna məxsus kafe;

Bakı şəhəri, Səbail rayonu, Abbasov küç., ev 1 ünvanında yerləşən, hüquqi şəxs "Yeni Bulvar" MMC-yə məxsus mehmanxananın tərkibində fəaliyyət göstərən restoran;

Salyan rayonu, İsmayılov küçəsində yerləşən, fiziki şəxs Abdullayev Zahid Əliağa oğluna məxsus çay evi;

Salyan rayonu, T. İsmayılov küçəsində yerləşən, fiziki şəxs Qarayev Ramil Şirəli oğluna məxsus kafe;

Salyan rayonu, Əliyev pr. 410 ünvanında yerləşən, fiziki şəxs Göyçayev Elnur Vahub oğluna məxsus "Banuçiçək" restoranı;

Salyan rayonu, Həmidov küçəsində yerləşən, fiziki şəxs Hüseynov Aqil Ələkbər oğluna məxsus kafe;

Salyan rayonu, İ. Qayıbov küçəsində yerləşən, fiziki şəxs Nurəliyeva Natavan Mükalı qızına məxsus çay evi.

Qeyd edək ki, AQTA tərəfindən Bakıda, eləcə də regionlarda fəaliyyət göstərən ictimai iaşə obyektlərində monitorinqlərin miqyası genişləndirilib. Hazırda AQTA müfəttişləri tərəfindən respublika üzrə monitorinqlər davam etdirilir və qaydalara əməl etməyən sahibkarlıq subyektləri barədə ən sərt tədbirlər görülücəkdir.

# Motoatıcı birləşmələrimiz döyüş atışları həyata keçirilir

***Əlahiddə Ümumqoşun Ordunun motoatıcı birləşmələrinin təlim mərkəzi və poliqonlarında şəxsi heyət aktiv məşğələlərə cəlb edilib.***

Bu barədə Unikal.org-a Müdafiə Nazirliyindən məlumat verilib.

Səhra şəraitində və çətin relyefli ərazilərdə təşkil olunan məşğələlərdə komandirlər tərəfindən tabelikdə olanların silahla davranış qaydaları, nəzəri bilikləri və praktiki bacarıqları yoxlanılır. Şəxsi heyətin döyüş meydanında hədəfləri məhv edərək sağqalmaq vərdişlərinin təkmilləşdirildiyi məşğələlərdə silah nümunələrinin tətbiqi səviyyəsi döyüş atışları ilə qiymətləndirilir. Məşğələlərdə atıcı silahlardan və qumbaraatanlardan praktiki atışlar yerinə yetirilir.

Baş redaktor:
**Zaur Əhməd**

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Allahşükür Paşazadədən Azərbaycan ictimaiyyətinə müraciət

***Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan ictimaiyyətinə müraciət edib.***

QMİ-dən "Unikal"a daxil olan müraciətin mətnində deyilir: "Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çoxsaylı sorğuları, ictimai-sosial sifarişi nəzərə alaraq milli genofondumuz, ailə institutu, demoqrafik inkişaf, ictimai asayiş və dövlətçilik maraqları üçün ciddi təhlükə - zəmanəmizin qorxunc bəlasına çevrilmiş narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinin həyacanlı durumu ilə bağlı Azərbaycan ictimaiyyətinə aşağıdakı müraciəti etməyi vacib sayır. Gələcək nəslin sağlam təməllər üzərində milli, dini-mənəvi dəyərlərə istinadən formalaşdırılması cəmiyyətimiz üçün bütün üçün çox böyük təhlükədir. Narkotik vasitələrin satışı, istifadəsinə dair statistikanı, bu bəlaya düçar olmuş insanların sayını, bu qorxunc kabusun gəncləri, qadınları, hətta məktəb yaşlı uşaqları ehtiva etdiyini nəzərə alsaq, təəssüf hissi ilə deməliyik ki, bu gün narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsi təhlükəli fəlakət həddinə yüksəlmişdir.

Narkotik maddələr və onlara aludəçilik sağlamlıq, iqtisadi, siyasi, ictimai və əxlaqi zəmində çox böyük dağıdıcı, məhvedici təsirlərə malikdir, insanın təfəkkür, düşüncə, istedad, idrak, qüdrət, çalışmaq və quruculuq səylərini əllərindən alır, iman və əqidəsini zədələyir, Uca Allahı dərk etməkdən uzaqlaşdırır, ailələrin əsasını dağıdaraq məhv edir. Məstedici maddələr fərdin və cəmiyyətin ruhu və cisminə təsir edən fəsadlı



dövrlərdə mühüm istiqamətlərdən biri olmuşdur. Gənc nəslin həm fiziki, həm ruhi saglamlığı, ictimai fəallığı və sosial faydalılığı kimi məqamların reallaşmasında ailə və cəmiyyətin rolu və məsuliyyəti danılmazdır. Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurası, Elmi-Dini Şurası zamanında bu mühüm məsələlərə dair sanballı konfrans və tədbirlər təşkil etmiş, yerlərdəki din xadimlərinə bu mövzuları öz moizə və xütbələrində mütəmadi olaraq şərh etmək barədə müvafiq tapşırıq və tövsiyələri vermişdir. Cəmiyyətin tərkib hissəsi olan din xadimlərinin vəzifəsi Uca Allahın müqəddəs Kitabımız Qurani-Kərimdə buyurduğu həqiqətləri, dinimiz İslamın dəyərlərini daha israrlı maarifləndirmə işi vasitəsilə cəmiyyətimiz üçün kamil insan tərbiyəsi prosesinə öz töhfələrini verməkdir. Müqəddəs Qurani-Kərimin bizə buyurduğu kimi: "Rəbbinin yoluna hikmətlə və gözəl öyüdnəsihətlə dəvət et..." (Nəhl, 125)

Narkomaniya cəmiyyətin fiziki və mənəvi məhvinə yol açır, imanı zəiflədir, onun olduğu yerdə həmişə dağılmış ailələr və valideyn himayəsindən məhrum qalan uşaqlar olur, oğurluq, qətl, intiharlara yol açılır. Narkotik asılılıq həm insan orqanizminə, həm də cəmiyyətin bel sütunu olan ailə institutuna dağıdıcı zərbə vurur. Gənc nəslin narkotik asılılıq kimi bəşəri bəla ilə üz-üzə qalması bu günümüz və gələcəyimiz nəticələri baxımından, bütün pisliklərin mənbəyi olduğuna görə İslamda haram buyurulmuşdur. İnsan əqlini əlindən alan, şüurunu pozan, iradəsini məhv edən, zehnini zəiflədən belə maddələrdən istifadə hər il milyonlarla insanın məhvinə səbəb olur.

Tibbi məqsədlər üçün deyil, məst, həzz, bihuş olmaq niyyəti ilə narkotik maddələrin haramlığı xüsusunda Qurani-Kərimdə belə buyurulmuşdur: " Ey iman gətirənlər! (Sizi zəlalətə uğradan məstedici içkilər, üyüşdürücü maddələr də), qumar da, (şirkə və küfrə səbəb olan) bütlər və falçılıq da şeytan əməlindən olan murdar əməllərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız!" (Maidə, 90). Peyğəmbərimiz Məhəmməd Salavatullahın mübarək hədislərində buyurulur: "Hər bir məstedici haramdır, çoxu məst edən şeyin azı da haramdır; İnsan ağlını məst edən hər bir şey haramdır" (Səhih Buxari, 1261-ci hədis).

Dini mərkəz olaraq din xadimlərimizi aidiyyatı olan dövlət qurumları və ictimaiyyətin müxtəlif təbəqələri ilə bərabər bu ictimai bəla ilə mübarizədə daha artıq səfərbər olmağa, məscidlərdə oxunan, habelə onlayn moizə və xütbələrdə insanları bu sosial fəlakət barədə ətraflı məlumatlandırmağa, onun fəsad və acı nəticələrini geniş şərh etməyə, dini maarifləndirmə müstəvisində günah və haram olduğu mətləbini daha dərindən təlqin etməyə çağırırıq. Bu işin daha miqyaslı aparılması üçün din xadimlərimizə kütləvi informasiya vasitələrində mütəmadi çıxış etmək imkanlarının yaradılmasını vacib sayır, bununla bağlı müvafiq qurumları bu şəraitin təmininə çağırırıq.

Azərbaycan dövləti gəncliyin sağlam inkişafı işini hər zaman prioritetlər sırasında nəzərdən keçirir, onların fiziki, mənəvi sağlamlığı üçün dövlət səviyyəsində proqramlar işlənib hazırlanır. Dövlət rəhbərimiz və ölkənin Birinci vitse-prezidenti səviyyəsində gəncliyin qayğı ilə əhatə olunması üçün sanballı və genişmiqyaslı tədbir və layihələr həyata keçirilir. Hüquq-mühafizə orqanları tərəfindən narkotik maddələrin satışına, onların qanunsuz dövriyyəsinə qarşı ciddi mübarizə aparılır, ölkə səviyyəsində maarifləndirici və reabilitasiya məqsədli layihələr həyata keçirilir. Lakin bəzi xarici və daxili qüvvələr cəmiyyətimizi zəifləmək, gələcəyimizi şikəst etmək üçün ən qorxulu və zərərli vərdişlərdən olan narkomaniyadan, narkotik vasitələrin qanunsuz dövriyyəsindən öz mənfəətləri üçün bir vasitə kimi istifadə etməyə çalışırlar. Bu durumda biz din xadimlərinin vəzifəsi bu istiqamətdə dövlət proqramlarına dəstək olmaq, hökumətimizin səylərinə yardım edərək daha artıq maarifləndirmə və bütün mümkün vasitələrlə sabahkı gündə övladlarımızın gələcəyinə etibarla baxa biləcəyimiz bir mühitin yaradılması üçün çalışmaqdır.

Qafqaz Müsəlmanları İdarəsi qazılarına, səlahiyyətli nümayəndələrinə və din xadimlərinə tövsiyə edir ki, moizə və xütbələrində, mediada çıxışlarında bu mövzuya həm dini, həm də ictimai baxımdan geniş şərh versinlər, narkomaniyanın zərər və fəsadları barədə insanlar arasında fəal təbliğati iş aparsınlar. Tövsiyə edirik ki, din xadimləri Allah-Təalanın insan varlığına və cəmiyyətin sağlamlığına zərər verə biləcək hər bir şeyi qadağan etdiyini moizələrində cəmiyyətimizə şəriət hökmü olaraq çatdırsınlar. Quranda, Peyğəmbər hədislərində şəriətin buna dair hökmlərini, həm istifadəsinin, həm yayılmasının haram olduğuna dair dəlilləri insanlara daha artıq dərəcədə izah və təlqin etsinlər. Narkomaniya təhlükəsinin qarşısının alınması cəmiyyətin bütün təbəqələrinin - dövlət strukturlarının, qeyri-hökumət təşkilatlarının, sosial institutların sıx əməkdaşlığı şəraitində birgə səyləri vasitəsilə mümkündür. Zərərli vərdişlərə qarşı mübarizədə aktiv olmaq, 44 günlük Vətən müharibəsində xalqımıza mübarək Zəfər yaşatmış qəhrəman oğullarımızın ruhuna sadiq və layiq gəncliyin yetişdirilməsi dövlət, millət olaraq bundan sonrakı qələbələrimiz üçün Vətənə, millətə xeyirli olan, dövlətçiliyimizə sadiq, mətin, iradəli, ruhən kamil, imanlı, təqvalı, əməlisaleh, vətənpərvər, milli-mənəvi dəyərlərinə ehtiram bəsləyən nəslin yetişməsinə yardım etmək həm Allah, həm də dövlətimiz qarşısında hamımızın mənəvi borcudur! Uca Allah Vətənimizi hifz etsin, xalqımızı hər zaman müvəffəq və müzəffər qərar versin! Amin!".



## "Qaçqınkom" məcburi köçkünlərin xatirələri barədə videoçarxlar hazırlayır

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi işğaldan azad edilmiş ərazilərdə ata-baba yurdlarına baş çəkən və həmin yerlərə getmək arzusunda olan keçmiş məcburi köçkünlərin xatirələri və təəssüratları barədə videoçarxlar hazırlayır.***

Bu barədə Unikal.org-a Dövlət Komitəsindən məlumat verilib. Bu dəfəki videoçarxda Laçın rayon sakini Azər Rəsulov və Ağdam rayon sakini Nicat Cəlilov danışır.

"Vətən həsrəti bitən həmvətənlərimiz, xüsusən, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin misilsiz sərkərdəliyi və siyasi-diplomatik fəaliyyəti nəticəsində işğalçı Ermənistanın döyüşsüz tərk etməyə məcbur olduğu Ağdam, Kəlbəcər və Laçın rayonlarının sakinlərinin möhtəşəm Zəfər haqqında fikir və düşüncələrini, Qələbə duyğularını bölüşürlər",- məlumatda bildirilib.

## Azərbaycan XİN İrana başsağlığı verdi

***Azərbaycanın Xarici İşlər Nazirliyi İrana başsağlığı verib.***

Unikal.org xəbər verir ki, bu barədə XİN-in tviter səhifəsində məlumat verilib.

"İranın Kürdüstan bölgəsində baş vermiş avtobus qəzası xəbərindən kədərləndik. Ölənlərin ailələrinə başsağlığı, yaralılara tezliklə sağalmalarını diləyirik", - qeyd edilib.

## "Almaniya 40 min əfqan qaçqını qəbul etməyə hazırdır" - Merkel

***Almaniya yalnız Bundesver və Xarici İşlər Nazirliyi missiyalarında xidmət edən əfqan əməkdaşları deyil, sığınacağa ehtiyacı olan Əfqanıstan vətəndaşlarını da qəbul edəcək.***

Unikal.org "Spiegel" nəşrinə istinadən xəbər verir ki, bunu Almaniya kansleri Angela Merkel avstriyalı həmkarı Sebastyan Kurzla keçirdiyi mətbuat konfransı zamanı bildirib.

"Həmişə demişik ki, təkcə yerli işçiləri (AFR-ə işləyənləri) deyil, Almaniyaya xüsusi işlərə cəlb olunan insanları da qəbul etmək istəyirik... Hamımız Kabil hava limanındakı şəraiti gördük... Sığınacağa ehtiyacı olan insanlar da qəbul edildi", - deyə o, ifadə edib.

Merkel Almaniyanın Əfqanıstan ərazisindən 40 minə qədər insanı köçürməyi nəzərdə tutduğunu da əlavə edib. Baş kansler vurğulayıb ki, bu insanlardan neçəsinin Əfqanıstanı həqiqətən tərk etmək istəyəcəyini müəyyənləşdirmək lazımdır. Onun fikrincə, hər şey silahlıların ölkədə yaradacağı şəraitdən asılı olacaq.

## Rəsmi Bakıdan Ermənistanın yeni XİN rəhbərinə cavab

***Ermənistan tərəfinin revanşist bəyanat və davranışları bu ölkənin hələ də beynəlxalq hüquq prinsiplərinə əsaslanan qonşuluq siyasətinə hazır olmadığını nümayiş etdirir.***

"Unikal"ın məlumatına görə, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan xarici işlər nazirinin "RİA" agentliyinə müsahibəsinə dair şərhində deyib.

L.Abdullayeva qeyd edib ki, Ermənistan xarici işlər naziri Ararat Mirzoyan Rusiyanın RİA xəbər agentliyinə müsahibəsində rəsmi İrəvanın bu günədək sərgilədiyi ənənəvi beynəlxalq hüquqa zidd və Azərbaycana qarşı ərazi iddialarını əks etdirən mövqeyini təkrar edib:

"Erməni xarici işlər naziri Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsindəki ərazilərində aqressiv separatçılığı qızışdırmaqla, bəhs etdiyi "sülh və təhlükəsizlik strategiyasının" saxtakarlıqdan başqa bir şey olmadığını və bu ölkənin hələ də təcavüz siyasətindən əl çəkmədiyini açıq şəkildə göstərir.

Ermənistanın yeni xarici işlər nazirinin diqqətinə çardırırıq ki, Azərbaycan ərazi bütövlüyünü beynəlxalq hüququn tələblərinə uyğun olaraq təmin edib və hazırda tərəflərin imzaladığı bəyanatların icrasının zamanıdır. Bu reallığı dərk etmək Ermənistan tərəfinin maraqlarındadır, çünki ölkə nəhayət yalan və xülyalara son verərək, gələcək inkişaf və tərəqqiyə köklənə bilər.

Ölkəmiz dəfələrlə beynəlxalq hüquq prinsipləri əsasında münasibətləri normallaşdırmaq tərəfdarı olduğunu bəyan edib. Ermənistan tərəfinin revanşist bəyanat və davranışları isə bu ölkənin hələ də beynəlxalq hüquq prinsiplərinə əsaslanan qonşuluq siyasətinə hazır olmadığını nümayiş etdirir".

## Qarabağ və Şərqi Zəngəzurda çəkilən yolların xəritəsi

***Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Qarabağ və Şərqi Zəngəzurda çəkilən avtomobil yollarının xəritəsini açıqlayıb.***

Agentlikdən "Unikal"a verilən məlumata görə, hazırda 101 kilometrlik Zəfər yolunun tikintisi ilə yanaşı 81,6 Əhmədbəyli-Füzuli-Şuşa, 80,7 kilometrlik Toğanalı-Kəlbəcər-İstisu, 72,3 kilometrlik Kəlbəcər-Laçın, 123,8 kilometrlik Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd yollarının tikintisi davam etdirilir.

Həmçinin 22 kilometrlik Talış-Tapqaraqoyunlu-Qaşaltı, 83 kilometrlik Xudafərin-Qubadlı-Laçın, 43 kilometrlik Şükürbəyli-Cəbrayıl-Hadrut, 13 kilometrlik Füzuli-Hadrut və 45 kilometrlik Bərdə-Ağdam avtomobil yolları tikilməkdədir.

# "Kadr sahəsində ciddi islahatlara ehtiyac var"

## Teyyub Qənioğlu: "Kadr seçilərkən kimin oğlu, qohumu, yerlisi olması yox, ixtisası, biliyi, səriştəsi, təcrübəsi nəzərə alınmalıdır"



***Ölkədə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə aparılsa da, hələ də məmurlar bu vərdişdən əl çəkmirlər. Hətta yüksək çinli məmurların həbsi də digərləri üçün dərs olmur. "Unikal" qəzetinə müsahibə verən Təkamül Partiyasının sədri Teyyub Qənioğlu ilə söhbətimiz də elə bu mövzu ətrafında oldu.***

***-Teyyub bəy, ölkədə korrupsiyaya qarşı mübarizə aparılsa da, ortada ciddi nəticə yoxdur. Sizcə, problem nədədir?***

-Son illər korrupsiyaya qarşı aparılan mübarizənin müəyyən nəticələr verdiyini söyləmək olar. Problem ondadır ki, bu sonu görünməyən bəlaya qarşı mübarizəni ardıcıl olaraq yalnız DTX-nin əməkdaşları aparır. Prokurorluq orqanlarının, xüsusilə də Korrupsiyaya Qarşı Mübarizə üçün xüsusi olaraq yaradılmış Baş İdarənin bu sahədə fəaliyyəti problemin miqyası nəzərə alındıqda kifayət səviyyədə deyil. Bunun iki səbəbinin olduğunu söyləmək olar. Birinci, qeyd edilən orqanların ştat heyətinin sayı geniş yayılmış korrupsiya bəlasına qarşı ciddi mübarizə aparmaq üçün kifayət olmaya bilər. İkinci, ən asas səbəb isə korrupsiyaya qarşı mübarizə aparmalı olan bir çox məmurların korrupsiyaya uğramış məmurlarla qohumluq əlaqələrinin olması, qarşılıqlı himayədarlıqla bağlıdır.

***-Maraqlısı odur ki, əvvəllər xırda məmurlar qurban gedirdisə, indi nazir, nazir müavinləri, generallar belə həbs olunur. Bu faktlar komandadaxili hesablaşmanın təzahürüdür, yoxsa korrupsiyaya qarşı səmimi bir mübarizə aparılır?***

-Hər iki səbəbin olduğunu inkar etmirəm. Ancaq, fikrimcə, ikinci, yəni korrupsiyaya qarşı səmimi mübarizə aparıldığını söyləmək olar. Məsələ ondadır ki, korrupsiya aşağıdan yuxarı demək olar ki, bir çox dövlət idarə və müəssisələrini, nazirlikləri, baş idarələri, icra strukturlarını və s. öz cənginə alıb, səviyyəsi o həddə çatıb ki, dövlətçilik üçün ciddi problemə çevrilib. Ona görə də, bu problemə ciddi münasibət bildirməmək daha mümkün deyil. Aydın məsələdir ki, naziri korrupsioner olan məmur ondan geri qalmayacaq. Ona görə də korrupsiyaya qarşı mübarizəni elə nazirlikdən başlamaq lazımdır.

***-Bu qədər xəbərdarlıq edilir, həbslər var, amma nəticə lazımi səviyyədə deyil. Bəlkə problem kadr seçimindədir?***

-Azərbaycanda az-çox "sanballı" sayılan vəzifələrdə bir nəfər də olsa təsadüfü adam tapa bilməzsiniz. Vəzifəyə təyinatda kimin qohumu, adamı, yerlisi olması əsas götürülür. Hətta son illər "cavanlaşdırma" adı altında həyata keçirilən təyinatlar da eyni ssenari üzrə həyata keçirilir. Hakimiyyət strukturlarında himayədarlıq, qohumbazlıq hökm sürdüyündən öz himayədarına, qohumuna arxayın olan korrupsioner məmur heç nədən çəkinmir, fikirləşir ki, heç kim mənə heç nə edə bilməz. Korrupsiyaya qarşı mübarizənin hələlik ciddi nəticələr verməməsinin əsas səbəbi məhz budur.

***-Yeni kadrların qohumbazlıq, dostluq prinsipləri əsasında təyin olunmasının prosesə hansı təsirləri var?***

-Təbiidir ki, çox ciddi mənfi təsirləri var. Korrupsiya mühitində böyüyən və qohumbazlıq, himayədarlıq prinsipləri əsasında vəzifəyə təyin edilən "gənc kadrın" bu bəladan yan keçəcəyi inandırıcı görünmür.

***-Ümumiyyətlə, hakimiyyətdən islahat gözləyirsiz, əsasən hansı sahələrdə, hansı istiqamətlərdə islahat, dəyişiklik edilməlidir?***

-Biz bütün sahələrdə- siyasətdə, iqtisadiyyatda, sosial sahədə, elmdə, təhsildə, kadr sahəsində- islahatlar gözləyirik. Son illər siyasi sahədə islahatlara start verilib. Xüsusilə iqtidar-müxalifət münasibətlərində yaxşılığa doğru addımlar atılır. Bu addımların daha geniş olmasını, siyasi partiyaların ölkənin siyasi həyatında geniş iştirakına imkan yaradılmasını, İcra hakimiyyəti strukturunun ləğv edilməsini, bələdiyyələrin rolunun artırılmasını gözləyirik.

İqtisadi islahatların genişləndirilməsinə, sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına dövlət tərəfindən daha ciddi dəstək verilməlidir. Hökumətin maliyyə-kredit siyasəti kökündən dəyişməlidir, banklar məmur sahibkarlığından azad edilməli, bu sahədə inhisarçılıq aradan qaldırılmalı, iri xarici banklar ölkəmizə dəvət edilməlidir.

Sosial sahədə ciddi dəyişikliklər (kadr dəyişikliyi də nəzərə alınmaqla) edilməli, bu sahədə həddini aşan qanun pozuntularına, xüsusilə əlillərə, pensiyaçılara qarşı ədalətsiz münasibətə son qoyulmalıdır. Pensiya sahəsində ciddi islahatlara ehtiyac vardır.

Elm sahəsində də islahatlara, xüsusilə də alimlərin ciddi sosial müdafiəsinə ehtiyac vardır. Bu gün Azərbaycanda elmlə (eləcə də təhsillə) məşğul olan insanlar fədakar insanlardır. Alimə verilən həddindən aşağı əməkhaqqı ilə ölkədə elmi inkişaf etdirmək olarmı? Alimi maddi sıxıntı keçirən ölkə inkişaf edə bilərmi? Alimlərin ölkənin inkişafında hansı rol oynadığını "görmək üçün" İsrailə, Yaponiyaya baxmaq kifayətdir. Təhsil, xüsusilə, ali təhsil sahəsində son illər baş verən qanunsuzluqlara, bəzi rektorların özbaşınalığına, avtoritarizmə meyllənmələrinə son qoyulmalıdır. Bu gün ali məktəblərdə professor-müəllim heyətinə 650 saatlıq tədris yükü planlaşdırılır ki, onun da ən azı 75-80 faizi aktiv dərs yüküdür. Assistentlərdə aktiv yük 100 faizə çatır. Həm bakalavr, həm də magistr pilləsində dərs deyən müəllim bəzən bütün günü (faydasız keçən fasilələrlə) işdə olmaq məcburiyyətindədir. Elmi dərəcəsi olmayan müəllimlər bəzən 18-20 qrupda 10-dan çox fəndən (!) dərs demək məcburiyyətindədir. Belə olan halda hansı keyfiyyətli təhsildən danışmaq olar? Təhsil haqqında qanunda axşam təhsili nəzərdə tutulmur. Amma bütün ali məktəblərdə magistrlər axşam təhsilinə cəlb olunub. Ali məktəblərin idarə edilməsində Təhsil Nazirliyinin səlahiyyətlərinin artırılmasına ciddi ehtiyac vardır.

***- Nəyi nəzərdə tutursunuz?***

- Məlumdur ki, bu gün Azərbaycanda fəaliyyət göstərən elmi-tədqiqat institutlarının və ali məktəblərin demək olar ki, hamısında alimin iş yerində elmlə məşğul olması üçün lazımi imkanlar kifayət qədər deyil. Elmlə məşğul olmaq, kitab, dərslik, mühazirə, məqalə, proqram və s. yazmaq üçün alimlər çox vaxt kitabxanalarda, evlərində məşğul olurlar. 8-10-15 və s. sayda insanın oturduğu otaqda elmlə məşğul olmaq olar? Elə isə iş yerində 7 saat 12 dəqiqə oturmaq tələbi hansı məntiqə sığır? Kifayət qədər şəraiti olmayan iş yerində 7 saat 12 dəqiqə oturmağa məcbur edilən alim məcburdu ki, elmlə işdən sonra məşğul olsun. Alimdən işdə 7 saat 12 dəqiqə oturmaq yox, öhdəsinə düşən işin müvəffəqiyyətlə yerinə yetirilməsini tələb etmək lazımdır.

Kadr sahəsində ciddi islahatlara ehtiyac vardır. Kadar seçilərkən kimin oğlu, qohumu, yerlisi olması yox, ixtisası, biliyi, səriştəsi, təcrübəsi nəzərə alınmalıdır. Son vaxtlar bəzi gənc kadrların yaxşı inzibatçı olması nəzərə alınaraq ixtisası olmayan sahələrə yüksək vəzifəyə təyin edilməsinin şahidi oluruq. Nəzərə alınmır ki, yaxşı rəhbər olmaq üçün yaxşı inzibatçı olmaq kifayət deyil, sahənin spesifik xüsusiyyətlərini bilmək daha vacibdir.

***Z.Məmmədli***

# Əbülfəs Qarayevin həbsi yenidən gündəmə gəldi

## Müavininin şok etiraflarından sonra sabiq nazirin "yuxusu qaçıb"



***Azərbaycanın sabiq Mədəniyyət naziri Əbülfəs Qarayevin həbsi yenidən gündəmə gəlib. Bu barədə "Unikal" qəzetinə məlumatlı mənbədən bildirilib.***

Mənbənin dediyinə görə, buna səbəb Bakı Ağır Cinayətlər Məhkəməsində Mədəniyyət nazirinin sabiq müavini Rafiq Bayramovun cinayət işi üzrə başa çatan məhkəmə prosesidir. Xatırladaq ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə Rafiq Bayramov son söz deyib və məhkəmənin hökmü ilə o, 8 il müddətinə azadlıqdan məhrum edildi. Son iclasda 2020-ci ilin 9 may tarixində nazir müavini vəzifəsindən azad edilmiş Bayramovun müəyyən eyhamlar vurması diqqət çəkib. Onun ibtidai istintaqa verdiyi və yola salmaq üzrə olduğumuz həftə yerli mətbuata sızan ifadələrində kifayət qədər ilginc nüanslar yer alıb. Belə ki, Bayramov istintaq zamanı regional mədəniyyət idarələrinin rəislərindən, həmçinin tenderlərdə qalib gələn şirkətlərdən aldığı bütün pullardan nazir Əbülfəs Qarayevin xəbərinin olduğunu və ona şəxsən verdiyini qeyd edib.

İstintaq materiallarından məlum olur ki, 2018-ci ilin sonlarında ovaxtkı Mədəniyyət naziri ilə razılaşdırmaqla tərəfindən regional idarələrin müdirlərinə musiqi məktəblərində çalışan müəllimlərin dərs saatlarının süni şəkildə artırılması və yaranan fərqin nağdlaşdırılaraq pul şəkilində R,Bayramova çatdırılmasına icazə verilib. Həmin vaxtdan etibarən isə regional idarə müdirləri musiqi məktəblərinin direktorları vasitəsilə mütəmadi olaraq hər ay musiqi məktəblərində çalışan müəllimlərin dərs saatlarını süni şəkildə artırmış və yaranan fərq nağdlaşdırılaraq pul şəkilində şəxsən onun və ya şöbə müdiri Pərvin İsgəndərlinin vasitəsilə Qarayevə verilib. Hər rayonun bu mənbədən ona ödədiyi məbləğ region ərazisində yerləşən musiqi məktəblərinin sayı və orada işləyən müəllimlərin sayından asılı imiş. Məsələn: Sumqayıt regional idarəsinin rəisi ayda təxminən 10.000 - 12.000 manat, Xaçmaz regional idarəsinin rəisi ayda təxminən 4.000 manat, İsmayıllı regional idarəsinin rəisi ayda təxminən 15.000 manat, Kürdəmir regional idarəsinin rəisi ayda təxminən 7.000 - 9.500 manat və s. və i.a.

Həmçinin istintaq materiallarından o da məlum olur ki, 2019-cu ildə R.Bayramov şəxsən və ya digər əməkdaş vasitəsilə regional idarə rəislərindən yuxarıda qeyd edilən mənbədən əldə olunan pul vəsaitindən hissə-hissə cəmi il ərzində təxminən 550.000 - 600.000 manat məbləğində pul vəsaiti almış, həmin vəsaiti il ərzində hissə-hissə mədəniyyət naziri Ə.Qarayevə verib, sabiq nazir də bu vəsaitin 15-20 faiz hissəsini ona nağd şəkildə qaytarıb.

Bundan başqa, Ə.Qarayevin regionlarda yerləşən mədəniyyət müəssisələrində cari təmir işlərinin aparılması üçün keçirilən tenderlərdən də külli miqdarda vəsait əldə etdiyi qənaətinə gəlinir. Məsələn: 2019-cu ildə regionlarda mədəniyyət müəssisələrində aparılacaq təmir işlərinə 1.500.000 manat ayrılıb, həmin vəsaitdən bu üsulla sabiq nazir müavininə 150 min manat "otkat" şəkilində verilib, sözügedən vəsaiti il ərzində hissə-hissə eks-nazirə çatdırıb, sabiq nazir isə bu vəsaitin 15-20 faiz hissəsini R.Bayramova nağd şəkildə qaytarıb.

İbtidai istintaq ifadələrində keçmiş müavin buna bənzər çoxsaylı korrupsiya əməllərini etiraf etməklə, media və ictimai rəydə ilk gündən bəri səsləndirilən bir qənaəti də dolayısı ilə təsdiqləyib: şübhə yeri qalmayıb ki, vaxtilə Mədəniyyət Nazirliyində tüğyan edən rüşvət və korrupsiya əməlləri nəinki Ə.Qarayevdən xəbərsiz baş verib; əksinə, eks-nazir bu qanunsuz işlərdən yaxşıca faydalanıb.

Mənbəmizin fikrincə, bütün bunların fonunda Əbülfəs müəllimin "yuxusunun qaçdığını" əminliklə söyləmək olar. Çünki sabiq müavinə hökm oxunsa belə, onun keçmiş nazirlə bağlı etirafedici ifadələri Qarayevin də cinayət məsuliyyətinə cəlb edilmə ehtimalını aktuallaşdırır.

Eyni zamanda bir çox müstəqil hüquqşünaslar və iqtisadçı ekspertlər də belə hesab edirlər ki, Mədəniyyət Nazirliyində mövcud olmuş korrupsiya sxeminin və şəbəkəsinin tam ifşası baxımından Əbülfəs müəllimin cinayət məsuliyyətinə cəlb edilməsi tamamilə mümkündür. Unutmayaq ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sabiq rəhbəri Səlim Müslümov da vəzifəsini itirdikdən xeyli sonra vaxtilə törətdiyi qanunsuzluqlara görə həbs olunmuşdu...

***Sənan Mirzə***

# Temperatur 5-8 dərəcə aşağı enəcək - Xəbərdarlıq

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi havanın dəyişəcəyi ilə bağlı xəbərdarlıq edib.***

"Unikal"a daxil olan məlumata görə, sentyabrın 2-si axşamdan Bakıda və Abşeron yarımadasında şimal-qərb küləyinin 15-20 m/s, arabir 23 m/s, 3-ü axşamdan arabir 25-30 m/s-dək güclənəcəyi, 4-ü səhər isə zəifləyəcəyi gözlənilir.

Sentyabrın 3-ü axşam, 4-ü gecə bəzi yerlərdə yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində intensivləşəcəyi ehtimalı var.

Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-8° aşağı enəcək.

Sentyabrın 2-si axşamdan 4-ü səhərədək Azərbaycan rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi 15-20 m/s, arabir 23-28 m/s, bəzi Kür vadisi rayonlarda arabir 30-33 m/s-dək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-8° aşağı enəcək.

Çaylarda sululuğun artacağı, bəzi dağ çaylarından qısamüddətli sel keçəcəyi ehtimal olunur.

# Birgə Monitorinq Mərkəzində Türkiyənin Zəfər bayramı qeyd olundu

***Ağdamdakı Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzində Türkiyənin Zəfər bayramı qeyd olunub.***

Unikal.org xəbər verir ki, bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, Ağdamdakı Türkiyə-Rusiya Birgə Mərkəzində 30 Avqust Zəfər bayramı və Türk Silahlı Qüvvələri günü münasibətilə bayram proqramı keçirilib.

# Rövşən Əkbərovun oğlunun hücum etdiyi vəkil izahat verib

***Vəkillər Kollegiyasının üzvü Elçin Sadıqov sabiq birlik komandiri, general-leytenant Rövşən Əkbərovun oğlunun ona məhkəmə prosesində hücum etməsi ilə bağlı polis şöbəsində izahat verib.***

"Unikal" xəbər verir ki, bu barədə Elçin Sadıqov özü sosial şəbəkədə paylaşım edib.

"Bu gün Bakı Şəhər Yasamal Rayon Polis İdarəsinin 27-ci Polis Şöbəsində izahat verdim. Ümid edirəm ki, Rövşən Əkbərovun oğlunun mənə öz vəzifələrimi icra etməyimlə əlaqədar, heç bir səbəb olmadan hücum etməsi araşdırılacaq və məsuliyyətə cəlb ediləréк cəzalandırılacaq", - deyə E.Sadıqov bildirib.

Qeyd edək ki, sentyabrın 1-də Bakı Hərbi Məhkəməsində keçirilən növbəti məhkəmə iclası zamanı R.Əkbərovun oğlu E.Sadıqova hücum edib. Bu barədə vəkilin özü sosial şəbəkə hesabında bildirib.

# ÜST-dən "Mü" ştamı ilə bağlı AÇIQLAMA

***Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) koronavirusun yeni ştamı ilə maraqlanır.***

Unikal.org xəbər verir ki, bu fikirlər "New Scientist"in təşkilatın məlumatlarına istinadən yaydığı xəbərdə yer alıb.

Məlumata əsasən, ÜST koronavirusun "Mü" ştamını maraq doğuran COVID-19 mutasiyaları siyahısına daxil edib.

Koronavirusun yeni "Mü" və yaxud B.1.621 ştamı ilk dəfə 2021-ci ilin yanvar ayında Kolumbiyada aşkar olunub. Bu ştam ilə yoluxma halları nəinki Cənubi Amerikada, həmçinin Avropada da aşkar olunub.

ÜST-nin məlumatına görə, hazırki vaksinlər bu ştama qarşı daha az effektiv nəticə göstərə bilər. Həmçinin qeyd olunur ki, koronavirusun bu ştamının araşdırılması üçün əlavə tədqiqatlar tələb olunacaq.

ÜST, həmçinin qeyd edir ki, "Mü" ştamının dünyada yayılması halları azalıb və hazırda 1%-dən az təşkil edir.

# Saxta COVID pasportu verən şəxslərə cinayət işi açıldı

***"Ağcabədi rayon mərkəzi xəstəxanası" Publik Hüquqi Şəxsinin Avşar kənd həkim məntəqəsində bəzi şəxslərə "COVİD-19" əleyhinə vaksinasiya olunmaları ilə bağlı saxta sənədlərin verilməsi barədə daxil olmuş müraciət əsasında Ağcabədi rayon prokurorluğunda araşdırma aparılmışdır.***

Ağcabədi rayon prokurorluğundan Unikal.org-a bildirilib ki, Araşdırmalarla həmin həkim məntəqəsinin vəzifəli şəxsləri tərəfindən ölkə daxilində və xaricində yaşayan bir neçə şəxsə "COVİD-19" əleyhinə vaksin vurulmadığı halda onların I və II doza vaksin olunmaları ilə bağlı tibbi sənədlərin tərtib edilməsi müəyyən edilmişdir.

Faktla bağlı Ağcabədi rayon prokurorluğunda Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanmışdır.

Hazırda yuxarıda göstərilən cinayət əməllərinin törədilməsində hər hansı formada iştirak etmiş şəxslərin müəyyən edilməsi məqsədilə intensiv istintaq hərəkətləri davam etdirilir.



# Vüqar Səfərli istintaqda Ramiz Mehdiyevin adını çəkdi

***Hazırda həbsdə olan və 25 milyon manata yaxın pulun mənimsənilməsində ittiham edilən KİVDF -nin keçmiş icraçı direktoru Vüqar Səfərli istintaqa ifadəsində icra etdiyi əməllərlə bağlı tapşırıqları Prezidentin sabiq köməkçisi Əli Həsənovdan aldığını deyib və əlavə edib ki, Ə.Həsənov da bunların Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin göstərişi olduğunu bildirib.***

"Kriminalqafqaz"ın istintaq materiallarından əldə etdiyi məlumata görə, V.Səfərli ifadəsinə başlayarkən 2009-cu ildə onlara verilən ofisin əlverişsiz olduğunu deyib: "2009-cu ildə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldıqdan sonra "İçərişəhər" metrostansiyasının yaxınlığında yerləşən sahəsi kifayət qədər kiçik mənzildə fəaliyyət göstərməyə başladıq. Ondan əvvəl bizə Fondun yerləşməsi üçün Əmlak Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən şifahi olaraq 8-ci km qəsəbəsində zirzəmidə yerləşən məkan təklif edildi. Təklif olunan həmin yer Fondun fəaliyyəti üçün münasib olmadığına görə oraya yerləşməkdən imtina etdik. "İçərişəhər" metrostansiyasının yaxınlığındakı yer də bizə uyğun deyildi və əməkdaşlarımızın işləməsi üçün kifayət qədər yer yox idi. Buna görə də, mən 2011-ci ildə Prezidentin köməkçisi və Fonda kuratorluq edən Əli Həsənovla məsləhətləşdikdən sonra Fondun fəaliyyət göstərməsi üçün münasib məkan axtarmağa başladım. Bu dəfə də Əmlak Məsələləri üzrə Dövlət Komitəsinə şifahi və yazılı müraciət etdim".

Vüqar Səfərli ifadəsində qeyd edib ki, daha sonra Əli Həsənovla görüşərək bu barədə danışıb: "Kuratorumuz Əli Həsənovun otağında onunla danışanda o, özünə məxsus olan Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 23L ünvanında yerləşən binada yer təklif etdi. Həmin bina əvvəllər "Azərmətbuatyayımı" ASC-nin balansında olub. "Azərmətbuatyayımı" ASC-ni təsis edən müəssisə isə "Kaspi Az" MMC-dir. Həmin MMC-nin təsisçisi, yəni sahibi kuratorumuz Əli Həsənovun həyat yoldaşı Sona Vəliyevadır. Mən Əli Həsənovun təklif etdiyi bina ilə tanış olduqda Fondun fəaliyyəti üçün münasib yer olduğunu gördüm. Həmin binanın Əli Həsənovun ailəsinə məxsus olduğuna görə yox, şəraiti və yerləşmə yeri münasib olduğuna görə üçüncü mərtəbədə yerləşən 371 kvadratmetr sahəni rəsmi müqavilə ilə icarəyə götürdüm".

V.Səfərli bildirib ki, müqaviləni özü Fondun icraçı direktoru kimi "Azərmətbuatyayımı" ASC ilə bağlayıb: "Həmin binada icarəyə verilən sahəyə ödənilən məbləğ hər ilin büdcəsi formalaşdırıldıqda Maliyyə Nazirliyi ilə razılaşdırılırdı. Maliyyə Nazirliyi heç vaxt ödənilən məbləğin normalara uyğun olmaması barədə Fonda irad bildirməyib. 2019-cu ildə ilkin bağlanmış icarə müqaviləsinə dəyişiklik edilərək əvvəllər həmin binada yerləşən "Bilik Fondu"ndan boşalan ikinci mərtəbədəki 421 kvadratmetrlik sahəni də icarəyə götürdük. Həmin müqaviləni Əli Həsənovun oğlu Şamxal Həsənovla bağladım. Çünki həmin bina rəsmi qaydada Şamxal Həsənovun adına keçirilmişdi. Əlavə 421 kvadratmetrlik sahənin icarəyə götürülməsini mənə Əli Həsənov tapşırdı. Hətta məsələdən Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin də məlumatlı olduğunu dedi və göstəriş verdi ki, Ramiz Mehdiyevin adına bu barədə məktub ünvanlayım. Əli Həsənovun dediyinə görə, həmin yeni icarəyə götürülən sahədə internet bloqerləri oturaraq fəaliyyət göstərməli idi. Həqiqətən də bir neçə bloqer həmin otaqlarda oturaraq qeyri-rəsmi formada fəaliyyət göstərirdilər".

# Hacıbala Abutalıbovun qeyri-adi planı...

## BŞİH-in sabiq başçısı niyə siyasi razılıq olmadan özünün Aparat rəhbərini daha da irəli çəkmək istəyib?

***Yola saldığımız həftə Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) keçmiş Aparat rəhbəri Rasim Quliyevin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib və ortaya xeyli ilginc məqamlar çıxıb.***

Belə ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxs ifadə verərək ona qarşı irəli sürülən ittihamlarla razı olmadığını, heç bir vəzifə səlahiyyətlərini aşmadığını, irəli sürülən ittihamların hüquqi əsasının olmadığını deyib. Sitat: Mən Bakı Şəhər İcra Hakimiyyəti başçısının verdiyi səlahiyyətləri müvəqqəti icra etməyə məcbur idim. Mən icraya gələn məktubları müvafiq idarələrə göndərirdim. İcra başçısının müavini səlahiyyətlərini icra etmək üçün hər hansı ərizə ilə müraciət etməmişəm. Sadəcə olaraq, vəzifə yükü mənə həvalə edilib, mən də iş dayanmasın deyə, həmin vəzifə yükünü götürmüşəm".

R.Quliyev maraqlı sual səsləndirib: "Sual verirəm, mənim vəzifə səlahiyyətim olubmu? İcra başçısının müavini kimi mənim əmək müqaviləm olmayıb, müavin əməkhaqqısı almamışam. Keçən iclasda da dediyim ki, Prezident Administrasiyasının sabiq rəhbəri də baş nazirin müavini Hacıbala Abutalıbova məktub göndərib ki, mənim müavin vəzifəsini icra etməyim qanunsuzdur. Hacıbala Abutalıbov isə cavabında ondan üzr istəyib. Buradan da aydın olur ki, mənim səlahiyyətim olmayıb".

İndi isə gələk təqsirləndirilən şəxsin ifadəsindəki ən maraqlı məqama. Sitat: "İttiham aktına salınan maddələr məni həbs etmək üçün hazırlanıb. Belə çıxır ki, məni tutmaq lazım imiş...".

Bəs görəsən həqiqətdə nə baş verib: Əlbəttə, bunu daha təfsilatı ilə R.Quliyevlə onu müavinliyə gətirən (daha doğrusu, müavin səlahiyyətlərinin icrasını ona həvalə edən) BŞİH-in sabiq başçısı Hacıbala Abutalıbov deyə bilər. Hətta istisna deyil ki, merin eks müavini növbəti məhkəmə iclaslarında daha açıq danışsın. Hazırda isə reallıq bundan ibarətdir: Hacıbala müəllim sabiq Aparat rəhbərinə müavin postu səlahiyyətini həvalə eləsə də, bunu o zaman Prezident Adminstrasiyası ilə razılaşdırmayıb. Sonradan isə müavin səlahiyyətlərinin icrasının müvəqqəti olaraq Rasim Quliyevə həvalə olunarkən Prezident Administrasiyası rəhbərliyindən müvafiq qaydada razılıq alınmadığına görə təəssüf hissi keçirməklə üzrxahlığını bildirib və müvafiq razılığın verilməsi xahiş olunub. Lakin bundan sonra Administrasiya tərəfindən yenə də müvafiq yazılı razılıq verilməyib.

İlgincdir, deyilmi?

Daha ilginc olan isə odur ki, R.Quliyev ona qarşı qaldırılan ittihamlarla razılaşmadığını deyərkən eyni zamanda ittiham aktındakı maddələrin onu həbs eləmək üçün hazırlandığını söyləyir. Lakin burada başqa çarpıcı məqamlar da ola bilərmi? Məsələn, Hacıbala müəllim nə üçün müavin səlahiyyətlərini məhz Aparat rəhbərinə həvalə etmək istəyib? Hətta bunu o qədər çox istəyib ki, yuxarı dairələrlə razılaşdırmağa belə gərək görməyib. Sonra da bu hərəkətinə görə üzr istəyib və bu dəfə də müavin səlahiyyətlərini



məhz R.Quliyevə verilməsini xahiş edib? Hacıbala müəllimin BŞİH-in o vaxtkı Aparat rəhbəri ilə bağlı israrının sirri nə olub görəsən?

İki ehtimal var. Bir: Baş nazir müavinliyinə təyinat alan Hacıbala müəllim R.Quliyevi faktiki olaraq müavinliyə gətirməklə öz dövründəki qanunsuzluqların yeni mer təyin olunanadək sürətli şəkildə ört-basdır edilməsi üçün daha yaxşı fürsət qazanmaq istəyib.

İki: istisna deyil ki, Abutalıbov elə də güclü fiqur olmayan kadrını "qurbanlıq" seçib. Yəni R.Quliyev lap əvvəlcədən sabiq merin özünün yol verdiyi qanunsuzluqları üzərinə yükləmək üçün müavin səlahiyyətlərinin icraçısı olaraq müəyyənləşdirilib.

Bir az da konkretləşdirsək, BŞİH-in sabiq Aparat rəhbəri "İttiham aktına salınan maddələr məni həbs etmək üçün hazırlanıb. Belə çıxır ki, məni tutmaq lazım imiş..." deyərkən azacıq yanılmış ola bilər: mümkündür ki, onun həbsi üçün hazırlıq həqiqətən olub, ancaq həmin hazırlığın müəllifi R.Quliyevi dayanmadan irəliyə çəkən Hacıbala müəllimin özü imiş. Əks təqdirdə heç bir siyasi razılıqsız, məsləhətləşməsiz bir kadrını dayanmadan irəli çəkmək, hətta paytaxt merinin müavin səlahiyyətlərinin icraçısı təyin eləmək, sonradan yuxarı dairələrdən üzr istəməsinə baxmayaraq seçimində israr eləmək, görəsən, Abutalıbovun nəyinə lazım idi axı?!

***Toğrul Əliyev***

# Nazim İbrahimovun özünüxilas cəhdi

## Keçmiş "diaspora şefi" hüquqi məsuliyyətdən yayına biləcəkmi?



***Yola saldığımız həftə Bakı Hərbi Məhkəməsində sabiq birlik komandiri, general-leytenant Rövşən Əkbərovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib. İclasda şahid qismində Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimov ifadə verib.***

O, 2001-ci il mayın 31-dən iyunun 1-nə keçən gecə Kiyev şəhəri, Deqtyaryov küçəsi 7 ünvanda yerləşən "Sikora" kafesində yeyib-içdikdən sonra, saat 04 radələrində həmin kafenin yaxınlığında qətlə yetirilən Elçin Əliyevin öldürülməsində hər kəsin R.Əkbərovdan şübhələndiyini deyib. Bu barədə generalın özünə də dediyini söyləyib. Sitat: "O (yəni R.Əkbərov), Məzahiri yumruqla, Elçini isə bıçaqla vurduğunu bildirdi. Baş verən hadisəni mənə Rövşən Əkbərov tam danışdı..."

Daha sonra N.İbrahimov 2021-ci ilin yanvarında istintaqa verdiyi ifadəsini təsdiqləyib. 2003-cü ildə verdiyi ifadəsini isə xatırlamadığını bildirib. R.Əkbərovun vəkilləri N. İbrahimovun 2003-cü ildə istintaqa verdiyi ifadəsinin elan olunmasını istəyiblər. Bundan sonra N.İbrahimov təkrarlayıb ki, hamı E.Əliyevin qətlə yetirilməsində R.Əkbərovun günahı olduğunu danışıb. Həmin vaxt N.İbrahimovla R.Əkbərovun arasında mübahisə yaranıb. Mübahisə zamanı general sabiq "diaspora şefi"ni təhqir edib. Burada kiçik bir haşiyə çıxaq. "Unikal" olaraq hələ bir müddət əvvəl N.İbrahimovun sözügedən cinayət işi ilə bağlı dindiriləcəyini yazmışdıq. Gəldiyimiz nöqtədə yazdıqlarımızın doğru çıxdığı aydın olur. Eyni zamanda qeyd eləmişdik ki, sabiq komitə sədri hələ Ukraynada səfir vəzifəsində çalışarkən özü barədə kifayət qədər qaranlıq reputasiya qazanıb: bütün diqqətini şəxsi biznesinin inkişafına yönəldib, nəticədə qısa müddət ərzində adı çəkilən ölkədə ciddi gəlir qaynaqları yaratmağa nail olub. Yeri gəlmişkən, həmin gəlir qaynaqlarının sırasına ticarət mərkəzləri, müxtəlif profilli mağazalar, otellər və restoranlar daxildir. N.İbrahimov komitə sədrliyinə yüksəldikdən sonra isə bu statusundan ölkə xaricində biznesini gücləndirmək üçün daha da rahat şəkildə faydalanıb. Sabiq sədrin ölkə xaricində sahib olduğu varidatı üzə çıxıb, aydınlaşıb ki, onun Azərbaycandan kənarda gəlir qaynaqlarının nə həddi var, nə hüdudu. Bu sırada sabiq komitə sədrinin Ukrayna bağlılığı xeyli maraq doğurur. Odur ki R.Əkbərovun məsuliyyətə cəlb edildiyi cinayət işi ilə bağlı N.İbrahimovun ən azından dindirilməsi ictimaiyyətdə qətiyyən təəccüb doğurmamalıdır. Çünki keçmiş "diaspora şefi"nin ölkədən kənardakı işini (elə ölkə daxilində olduğu kimi!) xeyli dərəcədə müəmmalı nüanslar üzərində qurduğu kimsəyə sirr deyil.Bundan başqa, hələ R.Əkbərov yenicə həbs edildiyi zamanlarda da sözügedən qətllə bağlı adı ilk hallananlardan biri isə Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimov idi. Məsələ burasındadır ki, adıçəkilən komitənin keçmiş rəhbəri məlum qətl hadisəsi törədilərkən məhz Ukraynada, səfir postunda çalışırdı. Ona görə də sözügedən qətldən xəbərdar olmaması tamamilə istisna edilirdi. Elə məlum qətlin qurbanı olan E.Əliyevin anası da yerli KİV-ə açıqlamasında demişdi ki, N.İbrahimov hər şeyi bilirdi, demədi. Sitat: " Rövşən tutulubsa, qoy Nazim də tutulsun. İşin bu yerə gəlib çıxmağında günahkar Nazimdir".

Mətbuatdakı digər açıqlamalardan, hüquqşünas rəylərindən də aydın görünürdü ki, R.Əkbərovla bağlı cinayət işinin önəmli fiqurlarından biri sabiq komitə sədridir və proses belə davam edərsə, onu da qarşıdakı dövrdə ciddi başağrısı gözləyir.

İndi isə hələlik şahid kimi tanınan N.İbrahimovun məhkəmə və istintaqa ifadələrindən də aydın olur ki, E.Əliyevin ailəsinin məlum qətllə bağlı ittihamlarında sabiq "diaspora şefi"nin adını hallandırması qətiyyən təsadüf deyilmiş. Eks komitə sədri ən azından danışılan cinayətin bu və ya digər formada şahididir, zamanında nələrisə bilib və gizlədib. Üstəlik, haqqında danışılan cinayətin gün işığına çıxarılması üçün nəinki bildiklərini danışmaq ehtiyacı hiss eləyib, ümumiyyətlə, susmağı üstün tutub. Ta ki, R.Əkbərov həbs olunub onun özünün də azadlığına təhlükə yarananadək!

N.İbrahimov generalın təhqirlərini sinəyə çəkəcək qədər "cəsarət" nümayiş etdirib qətldə məhz onu günahlandırırsa bu, sabiq "diaspora şefi"nin eyni zamanda həmin təhlükəni dəf eləmək, özünü təmizə çıxarmaq cəhdi kimi qiymətləndirilməlidir...

***Sənan Mirzə***

# Kolleclərə ixtisas seçimi edənlərin sayı 15 mini keçdi

***Ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) qəbul olmaq üçün avqustun 27-dən başlanan ixtisas seçimi davam edir.***

Dövlət İmtahan Mərkəzindən (DİM) "Unikal"a bildirilib ki, ixtisas seçimi sentyabrın 7-dək internet vasitəsilə həyata keçirilir. İxtisas seçimi mərhələsində abituriyentlər qəbul olmaq istədikləri ixtisasları seçib onların kodlarını https://eservices.dim.gov.az/erizetex/ixtisas1/?frm=egov1 internet ünvanında yerləşən "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etməlidirlər. Bu gün saat 14:50-dək ixtisas se-



çimi etmiş abituriyentlərin sayı 15596 (Azərbaycan bölməsi-15273; rus bölməsi-323) olub.

Xatırladaq ki, ixtisas seçiminə qəbul imtahanında topladıqları ümumi balı 50-dən, Azərbaycan dili və ya rus dili fənni üzrə balı 20-dən və riyaziyyat fənni üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılır.

Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsinə ümumi balı 50-dən az olmayan (fənlər üzrə bal məhdudiyyəti qoyulmur) və müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından "məqbul" alan abituriyentlər buraxılır. Xoreoqrafiya sənəti (sahələr üzrə) və rəqs müəllimliyi ixtisaslarının müsabiqəsində isə ümumi balı 30-dan (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir) az olmayan abituriyentlər iştirak edə bilərlər.



# Məktəbəhazırlıq qruplarının tədris planı təsdiqləndi

***Dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarının 2021-2022-ci tədris ili üçün tədris (məşğələ) planı təsdiq olunub.***

"Unikal"ın məlumatına görə, bu barədə təhsil nazirinin səlahiyyətlərini müvəqqəti icra edən Firudin Qurbanov əmr imzalayıb.

Tədris planına əsasən, məktəbəhazırlıq qruplarında məşğələlər hər il oktyabrın 1-də başlayır və növbəti il mayın 31-də başa çatır. Dərs ili iki yarımilə bölünür: I yarımil: 1 oktyabr - 26 yanvar; II yarımil: 1 fevral - 31 may.

Dərs ili ərzində aşağıdakı tətillər müəyyən olunur: payız tətili: 16-20 noyabr (5 gün); qış tətili: 27-31 yanvar (5 gün); əlavə tətil: 1-5 may (5 gün).

# Baş Prokurorluq KİV-ə müraciət etdi

***Baş Prokurorluq Aytən Niftəliyeva və azyaşlı övladı Tahirə Niftəliyevanın ölümü ilə bağlı kütləvi informasiya vasitələrinə müraciət edib.***

"Unikal" xəbər eveir ki, müraciətdə deyilir: "Xəbər verildiyi kimi, avqustun 30-da paytaxtın Səbail rayonu ərazisində yaşayan Aytən Niftəliyeva və azyaşlı övladı Tahirə Niftəliyevanın yaşadıqları evin pəncərəsindən yıxılaraq müalicə olunduqları xəstəxanada vəfat etmələri faktı ilə bağlı Səbail rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanmaqla istintaq aparılır.

Azərbaycan Respublikasının Baş Prokurorluğu kütləvi informasiya vasitələri və sosial şəbəkə istifadəçilərinə müraciət edərək qeyd olunan həssas mövzu ilə bağlı etik və qanunvericilik normalarına riayət etməklə Baş Prokurorluğun Mətbuat xidməti ilə dəqiqləşdirmə aparmadan hər hansı məlumatın yayılması hallarına yol verilməməsini tövsiyə edir".

# Türk Şurasına üzv dövlətlərin jurnalistləri Ağdama getdi

***Türk Şurasına üzv və müşahidəçi dövlətlərin media nümayəndələri üçün Azərbaycana media tur təşkil edilib.***

Media tur çərçivəsində Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Macarıstandan olan mətbuat üzvlərinin Ağdama səfərinə start verilib.

Səfərdə onların Ağdam Cümə Məscidində, Pənahəli xanın İmarət Kompleksi, Qiyaslı məscidində olacaqları gözlənilir.

# Türkiyədə daşqın qurbanlarının sayı artdı

***Türkiyənin şimalında baş vermiş daşqınlar nəticəsində həlak olanların sayı artıb.***

"Unikal" xəbər verir ki, bu barədə məlumatı ölkənin Fövqəladə Hallar üzrə Dövlət İdarəsi yayıb. Bildirilir ki, təbii fəlakət nəticəsində həlak olanların sayı 82-yə çatıb.

"Daşqınlar nəticəsində 82 vətəndaşımız (Kastamonuda 71, Sinopda 10, Bartında 1) həlak olub", - deyə idarənin məlumatında qeyd olunub.

Qeyd edək ki, avqustun 11-i Türkiyədə yağan leysan yağışları bir sıra əyalətlərdə daşqınlara və torpaq sürüşməsinə səbəb olub. Fəlakət nəticəsində bina, maşın və infrastruktura ziyan dəyib.




# Sabiq icra başçısı dövlətin 4 milyon manatını mənimsəyib

***Lənkəran Ağır Cinayətlər Məhkəməsində Biləsuvar rayon İcra Hakimiyyətinin sabiq başçısı Mahir Quliyevin barəsindəki cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.***

Modern.az xəbər verir ki, hakim İlkin Abdullayevin sədrliyi ilə keçirilən iclasda məhkəmə istintaqının başlanıldığı elan edilib.

Prokuror ittiham aktını elan edib.

İttihama görə, Biləsuvar rayon İcra Hakimiyyətinin sabiq başçısı Mahir Quliyevin birinci müavini Xanlar Məmmədov vasitəsilə xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar maddi yardıma ehtiyacı olan şəxslərə sosial yardım üçün ayrılan vəsaitin bir qismini hissə-hissə mənimsəməsi, habelə icra hakimiyyətinin sərəncamında olan digər vəsaitlərdən sosial yardım adı altında ayıraraq hissəsinin ona verilməsini tapşırmasına dair əsaslı şübhələr müəyyən olunub.

Bundan başqa, Mahir Quliyevin köməkçisi Pöhran Şahbazov və tabeçiliyində olan başqa vəzifəli şəxslər vasitəsilə yerli icra hakimiyyəti və digər dövlət orqanlarının vəzifəli şəxslərindən, eləcə də rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlardan müxtəlif adlar altında özünün pul vəsaitləri tələb edərək almasına dair əsaslı şübhələr müəyyən edilib.

Həmçinin dövlət qayğısı ilə əhatə olunan işsiz və aztəminatlı vətəndaşların ictimai işlərə cəlb edilərək aylıq qazanc əldə edə bilmələri üçün əməkhaqqı kartlarına köçürülən məbləğlərin Mahir Quliyev tərəfindən ələ keçirilməsinə dair məlumatlar əldə edilib.

M. Quliyev tərəfindən təmir-tikinti, abadlıq işlərinə ayrılan dövlət vəsaitlərinin müəyyən hissəsinin nağdlaşdırılaraq mənimsənildiyinə, vətəndaşlardan müxtəlif təyinatlı tikintilərin aparılması üçün zəruri olan sənədləşmə işləri və digər əsaslarla ümumilikdə təkrarən rüşvət tələb edilərək alınmasına əsaslı şübhələr müəyyən edilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin 2020-ci il aprelin 29-da həyata keçirdiyi əməliyyat-istintaq tədbirləri nəticəsində, Mahir Quliyevin xidməti otağında növbəti dəfə rüşvət almasından sonra məhkəmənin qərarı əsasında keçirilən baxış zamanı həmin pul vəsaitləri, aparılan araşdırmalarla bağlı iş üzrə əhəmiyyət kəsb edən müxtəlif sənədlər və digər maddi sübutlar aşkar edilərək götürülüb. Ümumilikdə sabiq icra başçısı 4 milyona yaxın dövlət vəsaitini mənimsəməkdə təqsirli bilinib.

Bütün bunar nəzərə alınaraq Mahir Quliyevin barəsində Cinayət Məcəlləsinin 179-cu (mənimsəmə və israif etmə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 311.3.2-ci (təkrar rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham irəli sürülüb.

Məhkəmədə ifadə verən Mahir Quliyev ittiham üzrə özünü qismən təqsirli bildiyini deyib.

Sabiq icra başçısı bildirib ki, sözügedən vəsaiti şəxsi məqsədlər üçün istifadə etməyib. Həmin pullar rayon ərazisindəki "Gənclər evi" "Bayraq Meydanı", " Uşaq bağçası" və digər tikinti işlərinə xərclənib.

Qeyd edək ki, Biləsuvar rayon İcra Hakimiyyətinin sabiq başçısı Dövlət Təhlükəsizliyi Tərəfindən keçirilən əməliyyatla saxlanılıb.

Onun barəsində Səbail Rayon Məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

# Səhiyyə Nazirliyinin baş cərrahının absurd məntiqi...

## Həftənin replikası: Elçin Ağayev doğrudanmı köhnə həqiqətlərdən xəbərsizdir?

***Dünən xəbər saytlarına göz atarkən Səhiyyə Nazirliyinin baş cərrahı Elçin Ağayevin bir açıqlamasına rast gəldik. Açıqlamada o, böyük uğurların olmasına baxmayaraq, səhiyyənin bəzi sahələrində, xüsusən də özəl sektorunda bir sıra qüsurların mövcudluğundan danışırdı.***

Onun sözlərinə görə, özəl xəstəxanalarda mürəkkəb rekonstrukiv əməliyyatlar böyük təcrübəyə malik olmayan qeyri-peşəkar cərrahlar tərəfindən icra olunur. Hətta bu əməliyyatlardan sonra başlayan ağırlaşmalara görə icra olunan təkrari əməliyyatlara təcrübəli mütəxəssislər dəvət olunmayaraq, bu həkimlərin özləri tərəfindən həyata keçirilir. Sitat: "Bu, çox ciddi qüsur və nöqsandır, çünki dəfələrlə tövsiyə olunub ki, təkrar əməliyyatlara mütləq təcrübəli mütəxəssislər dəvət edilməlidir və birinci əməliyyatı icra edən həkim tərəfindən aparılmamalıdır. Burada həm məqamlar təqdirə dəyər. Çünki biz nazirlik rəsmilərindən bir qayda olaraq ölkənin səhiyyə sistemi ilə bağlı tərifli sözlər eşidirik. Media və ictimaiyyətin tənqidləri isə adəti üzrə təkzib edilir. Lakin E.Ağayev səhiyyənin bəzi sahələrində (o cümlədən, özəl sektorunda!) bir sıra qüsurların mövcudluğunu inkar eləmir. Buna görə də baş cərraha təşəkkür düşür.

Lakin E.Ağayevin açıqlamasının absurd tərəfləri daha çoxdur. Məsələn, o, mürəkkəb rekonstrukiv əməliyyatların böyük təcrübəyə malik olmayan qeyri-peşəkar cərrahlar tərəfindən icra edildiyini dilə gətirir, lakin söyləmir ki, Səhiyyə Nazirliyi niyə belə hallara illərdən bəridir göz yumur? Nə üçün özəl tibbi klinikalarda obyektiv yoxlamalar aparılmır. Axı belə yoxlamalar aparılsa həmin o böyük təcrübəyə malik olmayan qeyri-peşəkar cərrahların varlığı da, onların həyata keçirdiyi uğursuz əməliyyatlar və bu əməliyyatların qurbanları da hiyyə Nazirliyinin baş cərrahı xəbərsizdir?

Hələ onu demirik ki, yazılı və elektron KİV-lərdə özəl və dövlət xəstəxanalarındakı özbaşınalıqlar, yanlış müayinə və müalicələr, uğursuz cərrahi əməliyyatlar barədə az qala hər həftə hansısa şikayət, xəbər dərc olunur. Səhiyyə Nazirliyi elə bu şikayətlərdən, xəbərlərdən yola çıxaraq üzərinə düşən vəzifəni yerinə yetirə bilməzmi?

Yaxud, bəyəm sirrdirmi ki, bu nazirlik belə şikayətlər, xəbərlər barədə əksər hallarda ümumiyyətlə araşdırma aparmadan "qətiyyətli təkzib" yolu tutur, şikayətçiləri, həkim qurbanlarını günahkar çıxarmağa çalışır. İllərdir formalaşan belə bir "ənənədən" sonra vətəndaş Səhiyyə Nazirliyinə nə üçün etibar etməli, ondan öz dərdinə əncam çəkməsini gözləməlidir?

Əlbəttə, E.Ağayev ola bilsin ki, Oqtay Şirəliyev nazir postunu itirdikdən sonra yeni situasiyanın ortaya




psixoloji amillər həkimin fəaliyyətinə mənfi təsir göstərə bilər, həm də təkrar əməliyyat mürəkkəb olduğuna görə burda zəngin kliniki təcrübəyə və elmi biliklərə malik olan həkimlərin iştirakı olduqca vacibdir. Bunu da özəl klinikalarda fəaliyyət göstərən bizim gənc həkimlərimiz mütləq bilməli və əməl etməlidir".

Baş cərrah onu da deyib ki, uğursuz cərrahi əməliyyatlarla bağlı müraciətlər var: "Bu kimi vəziyyətlərdə Səhiyyə Nazirliyinə rəsmi qaydada müraciət edilməlidir. Əmin ola bilərsiniz ki, daxil olan hər bir müraciət həssaslıqla araşdırılaraq, lazımi tədbirlər görülür".

Açığı, adıçəkilən nazirliyin baş cərrahının açıqlamasındakı tənqidi ortaya çıxardı. Əlbəttə, iddia etmək olar ki, adıçəkilən nazirlik özəl xəstəxanalarda mütəmadi olaraq yoxlamalar aparır. Lakin bu yoxlamaların formal xarakter daşıdığını, ciddi cəza tədbirlərinə gətirib çıxarmadığını, nəticə etibarilə də tibb müəssisələrində illərdən bəridir eyni problemlərin tüğyan etdiyini bilməyən yoxdur. Təftişlərin formallığının səbəbi də məlumdur: az qala hər özəl klinikanın arxasında hansısa nüfuzlu məmur dayanır və bu səbəbdən onlara "gözün üstə qaşın var" deyən tapılmır. Onlardan şikayətlər aidiyyatı qurumlarda yatıb qalır, hətta məhkəmələrdə belə ədalətli qiymətini ala bilmir.

Doğrudanmı, cəmiyyətə gün kimi aydın olan bu sadə həqiqətdən Səçıxdığını və Səhiyyə Nazirliyinin iş prinsiplərinin müsbətə doğru dəyişdiyini nəzərdə tutur. Elədirsə, lap yaxşı. Lakin nazirlik öz fəaliyyətində pozitiv dəyişikliklərin başlandığını sözdə yox, əməldə göstərməlidir. Dövlət xəstəxanalarında rüşvətin baş alıb getməsinin qarşısını almaq, özəl klinikalardakı soyğunçuluğa son qoymaq, ən əsası isə müayinə və müalicə işini uğurla təşkil etmək üçün hərəkətə keçməlidir. Cəmiyyəti inandırmalıdır ki, səhiyyə sistemi Oqtay Şirəliyevin dövrünə xas zərərli vərdişlərdən, "ənənələrdən" qurtulur.

Əks halda söylənilən quru pafos təsiri bağışlayacaq, vəssəlam!

***Hüseyn İsgəndərov***

## İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Pandemiya dövründə İKT-nin inkişafı üçün görülən işlər

## Nazirlik: "Bölgələrdə çevik telekommunikasiya şəbəkəsinin qurulması məqsədilə 4-cü nəsil simsiz rabitə texnologiyası - LTE tətbiq edilir"



***Koronavirus pandemiyası dövründə informasiya və kommunikasiya texnologiyalarının (İKT) inkişafı prioritet olub. Pandemiya səbəbindən bir sıra sahələrdə fəaliyyətin onlayn rejimə keçməsi İKT-ə tələbatı artırıb. Qarşıdan isə yeni tədris ili gəlir. İndi təhsil ictimaiyyətini maraqlandıran məsələlərdən biri də pandemiya dövründə təhsilin necə təşkil olunacağıdır.***

Bu məsələ koronavirusa yoluxmanın sayından asılı olduğundan konkret fikir söyləmək mümkün olmasa da, ötən tədris ili məsafədən təhsil İKT ilə bağlı bir sıra problemləri üzə çıxartdı. Orta və ali təhsil ocaqlarında tədrisin məsafədən təşkili bəzi ərazilərdə ümumiyyətlə internetin olmadığı problemini ortaya qoydu. Bəs görəsən pandemiya dövründə yaşadığımız bu problemlərin həlli istiqamətində hansı addımlar atılıb? Ölkəmizdə informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi istiqamətində hansı işlər görülür?

Bununla bağlı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, vətəndaşların telekommunikasiya xidmətlərinə olan tələbatının ödənilməsi, dayanıqlığın və keyfiyyətin təmin edilməsi məqsədilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin müvafiq qurumları tərəfindən mərhələli şəkildə bütün zəruri işlər həyata keçirilir:" "Bakı Telefon Rabitəsi" MMC ("Baktelecom") tərəfindən Bakı və ətraf ərazilərdə yerləşən fərdi evlərdən ibarət yaşayış massivlərində "Evədək optika" layihəsinin icrasına başlanılıb. GPON (Gigabit Passive Network) texnologiyası əsasında tətbiq edilən bu layihə bir optik xətt üzərindən istifadəçilərin telefon, internet və televiziya xidmətlərinə qoşulmasına imkan yaradır. Texnologiya telefon xətlərindən asılılığın olmaması, 100 Mbit/s-ə qədər qoşulma sürəti və digər üstünlüklərə malikdir. Eyni zamanda, "Baktelecom" məhdud infrastrukturlu Bakıətrafı ərazilərdə simsiz rabitə - LTE (Long Term Evolution) texnologiyası üzərindən sakinlərin rabitə xidmətləri ilə təminatını həyata keçirir. Təqdim edilən "Simsiz rabitə" xidməti ilə uzun zaman mövcud olan telefon çəkilişi və internet xidmətləri ilə təchizat çətinliyi aradan qaldırılır. İstifadəçilər "simsiz" şəbəkəni dəstəkləyən xüsusi avadanlıq əldə etməklə rabitə xidmətlərindən yararlana bilirlər. "Aztelekom" MMC tərəfindən aparılan işlər nəticəsində artıq Sumqayıt şəhərinin ətraf ərazilərinin sakinləri internet və multimedia xidmətlərindən yararlanırlar".

Nazirlikdən o da bildirilir ki, rabitə şəbəkəsi olan kənd və qəsəbələrdə yeni tikilən evləri və genişlənən əraziləri, habelə yeni salınmış yaşayış məntəqələrini telekommunikasiya xidmətləri ilə təmin etmək məqsədilə mövcud tutumun artırılması və xətt şəbəkəsinin tikilməsi istiqamətində tədbirlər görülür. Bu məqsədlə Biləsuvar, Zaqatala, Qazax rayonlarında və Şirvan şəhərində ONU (Optical Network Unit - Optik Şəbəkə Bloku) tipli avadanlıqlar quraşdırılaraq istifadəyə verilib. Bununla yanaşı, həyata keçirilən şəbəkənin müasirləşdirilməsi layihəsi çərçivəsində göstərilən xidmətlərin çeşidini və həcmini artırmaq üçün mövcud mis kabel xətləri fiber-optik xətlərlə əvəzlənir və GPON texnologiyası tətbiq edilir. Kəndlərdə köhnə tipli avadanlıqlar müasir avadanlıqlarla əvəz olunur, xətt şəbəkəsi təmir edilir, şəbəkənin genişləndirilməsi işləri aparılır. Proses hazırda da davam etdirilir. Görülən işlərin nəticəsi kimi, vətəndaşların telefon və internetlə təmin olunmasında artım müşahidə edilir.

Onu da qeyd edək ki, bu gün problem təkcə bəzi ərazilərdə internetin olmaması yox, həm də internetin sürətinin zəif olmasıdır. Nazirlikdən bildirirlər ki, internet xidmətinin verilməsində kəsintilər və ya sürətin aşağı enməsi müxtəlif xarici və daxili amillərin təsiri ilə baş verə bilər: "Mis kabellər müasir standartlara cavab verən fiber-optik xətlərə nəzərən xarici təsirlərə məruz qalır. ADSL texnologiyasında yüklənən axının sürəti ötürülən axının sürətindən yüksək - yəni asimmetrik olur. Bu səbəbdən "Baktelecom" tərəfindən mis xətlərin dayanıqlı fiber-optik xətlərlə əvəzlənməsi işləri aparılır. "Baktelecom" Bakı şəhəri üzrə köhnə və yeni tikililərdə optik şəbəkəyə keçidlə bağlı "Evədək optika" layihəsinin icrasını həyata keçirir. Görülən işlər çərçivəsində "Baktelecom"un inşa etdiyi 180 min mənzilə müasir standartlarla genişzolaqlı xidmətin ötürülməsinə imkan yaradılıb. "Baktelecom" istifadəçilərindən internetin sürəti ilə bağlı müraciətlər daxil olarkən çətinlik fərdi qaydada araşdırılır, xətt göstəricilərinin texniki normalara uyğunluğu müəyyənləşdirilir, şəbəkəni ötürən modemin saz vəziyyətdə olmasına diqqət yetirilir.

Məlumatda o da qeyd olunur ki, bölgələrdə çevik telekommunikasiya şəbəkəsinin qurulması məqsədilə 4-cü nəsil simsiz rabitə texnologiyası - LTE tətbiq edilir. Artıq Sumqayıt şəhərinin ətraf ərazilərində, Abşeron rayonunun bir sıra yaşayış məntəqələrində və Xaçmaz rayonunun kəndlərində sakinlər internetlə yanaşı, digər multimedia xidmətlərindən də faydalana bilirlər.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Vaksin növbələri yoluxmaya yol açır - Deputat və həkimdən etiraz

***Bir ildən çoxdur bizimlə yol yoldaşı olan, bəzilərimiz üçün sınağa, bəzilərimiz üçün məsxərə obyektinə, bəzilərimiz üçün isə Əzrayıla çevirilən COVID-19 bəlası bitmək bilmir. Bəlkə də bitməsi kimlərinsə marağında deyil. Təəssüf ki, bir çox suallar kimi, bunun da cavabı məchuldur...***

Bütün dünyada olduğu kimi, Azərbaycanda da koronavirusa yoluxma və ölüm sayı durmadan artır. Son müşahidələr əhalinin kütləvi şəkildə axışdığı poliklinikalarda, xəstəxanalarda yoluxduğunu göstərir. Əksəriyyət isə 1-ci dozadan sonra yolxuduğu qənaətindədir. Amma əsas səbəb peyvənd yox, peyvəndləmə zamanı səriştsiz səhiyyə qurumlarınn biabırçı təşkilatçılığıdır.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi əhaliyə randevu götürmədən peyvənd vurdurmağa getməməyi tövsiyə edir. Randevu götürənlər isə tibb müəssisəsində canlı növbə gözləməli olur. Məlumat üçün bildirək ki, Bakı şəhəri üzrə vaksinasiya prosesini Səhiyyə Nazirliyi, digər şəhər və rayonlarda isə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) həyata keçirir.

Məsələ ilə bağlı Modern.az-a danışan deputat Fazil Mustafa koronavirusla bağlı bəzi şeylərin hələ də dəqiqləşmədiyini deyib: "Vaksin olunmuş və xəstəliyi ağır keçirən insanların olması göstərir ki, virusla bağlı bilmədiyimiz məqamlar var. Amma bütün hallarda vaksinasiya ümid yeri yaradır. Bəzən immuniteti qaldırmaq üçün müəyyən addımlar atmaq tələb olunur. Bunlardan biri də peyvənddir. Amma peyvəndin məcburi hala gətirilməsi doğru deyil. Odur ki, bütün vaksin vurulan polklinikaların, xəstəxanaların qarşısında sıxlıqlar yaranıb".

Parlamentari vaksinasiya prosesində təşkilatçılığın xoşagələn vəziyyətdə olmadığı qənaətindədir: "Həm də tibb personalı da çatmır, maaş çox aşağıdır. Pandemiyaya cəlb olunmuş tibb işçilərinin çoxu maaş ala bilmir. Hətta hərbiyə cəlb olunmuş həkimlər şikayət edirdilər ki, onların maaşı lazımi səviyyədə verilmir. Ona görə də ədalət təmin olunmursa, onların yaşam standartları ödənilmirsə, çətin olacaq. Bunu düşünmək lazımdır. Tibb işçilərinin çəkdiyi əziyyətin qarşılığını vermək lazımdır. Əks halda, heç kim bu prosesdə boynuna düşəni ürəkdən etmir və etməyəcək də".

Həkim Aydın Əliyev də Modern.az-ın mövzu ilə bağlı sualını cavablandırarkən bildirib ki, pandemiya başladığı dövrdən bu günə qədər təşkilatçılıq arzuolunan səviyyədə olmayıb: "Təəssüflər olsun ki, heç indi də arzuolunan səviyyədə deyil. Biz də bu işin içərisində olan həkim kimi dünyada və ölkəmizdə gedən prosesləri müqayisə edirik. Hər hansı qadağa ilə, məcburiyyətlə ciddi nəticə əldə etmək olmayacaq. Peyvənd könüllü olmalıdır. Sadəcə, peyvəndlə bağlı təbliğat düzgün aparılmalıdır. Məşhurların, insanların sevgisini qazanmış şəxslərin iştirakı ilə videoroliklər çəkilməlidir. Məsələn, bizdə məmurlar, deputatlar peyvəndlə bağlı əhaliyə çağırış edir. Amma bilmirlər ki, insanlar bunlara inanmır. Müğənni Damla isə çıxıb desə ki, ay camaat vaksin vurdurun, əksəriyyət onu dinləyəcək. Sözümün canı odur ki, insanlar kimə inanır, kimi sevirsə, onların vasitəsilə təbliğat aparılmalıdır".

Həkim məcburiyyətin saxtakarlıqlara yol açdığını düşünür: "Məcbur etdilər, insanlar saxta COVID-19 pasportu aldılar. Daha sonra saxta pasport məsuliyyət yaradır deyə, indi də əksəriyyət allergiya haqqında arayış alır. Yəni hər hansı qadağa olsa, bizdə mütləq ona kontur arqument yaranır. Bəli, mən də son vaxtlar eşidirəm ki, insanlar 1-ci dozadan sorna yoluxduğunu deyir. Elə düşünürlər ki, peyvənd olunublar deyə yoluxublar. Onlar peyvənddən yox, vaksin vurdurmaq üçün yaranan sıxlıqda yoluxur".




# ASC-nin qrant layihəsi başa çatıb

***"Meliorasiya və su təsərrüfatı obyektlərinin elektron məlumat bazasının yaradılması" qrant layihəsi başa çatıb.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin nümayəndəsi Dilqəm Şərifovun verdiyi məlumata görə, Azərbaycan hökuməti ilə Çin hökuməti arasında 8 dekabr 2014-cü il tarixdə bağlanmış iqtisadi və texnoloji əməkdaşlıq müqaviləsi əsasında Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC üçün həyata keçirilmiş "meliorasiya və su təsərrüfatı obyektlərinin elektron məlumat bazasının yaradılması" qrant layihəsi çərçivəsində Çin Xalq Respublikasından gətirilmiş zəruri avadanlıqlar aidiyyəti üzrə quraşdırılmış və Səhmdar Cəmiyyətin əməkdaşları üçün SuperMAP proqram təminatının mənimsənilməsi üzrə təlimlər başa çatmışdır.

Bu münasibətlə avqust ayının 31-də Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində tədbir həyata keçirilmişdir. Tədbir zamanı Səhmdar Cəmiyyətin rəhbərliyi və qrant layihəsinin icraçısı olan Çin Xalq Respublikasının "AVİC-İNTL" Layihə Mühəndislik şirkətinin səlahiyyətli nümayəndəsi layihənin başa çatması ilə əlaqədar müvafiq sənədləri imzalamışdır. Layihə çərçivəsində iştirakçılara beynəlxalq sertifikatlar təqdim olunub.

***Hüseyn***

# Ağacları çıxarıb yerində obyekt tikmək istəyən şəxsə cinayət işi açıldı

***Gəncədə ağacların məhv edilməsinə görə cinayət işi başlanılıb. Bu barədə Unikal.org-a şəhər prokurorluğundan məlumat verilib.***

Bildirilib ki, Gəncə şəhəri Nizami rayonu ərazisində ağacların qanunsuz olaraq yerindən çıxarılması ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 10 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsindən daxil olmuş material əsasında Gəncə şəhər prokurorluğunda araşdırma aparılıb.

Araşdırmalarla müəyyən edilib ki, qeyd edilən ərazidə yerləşən qeyri-yaşayış binasının tikintisini, özəlləşdirilməsini və digər işlər aparmasını etibarnamə əsasında əldə etmiş Gəncə şəhər sakini Ədalət Heydərov Gəncə şəhər İcra Hakimiyyəti tərəfindən həmin tikinti obyekti ilə bağlı sənədləri hazır etdikdən sonra obyektin ərazisində yerləşən ağaclıq-kolluq sahəni çıxarıb digər bir yerə əkilməsi hüququnu əldə etdiyini düşünərək qeyd olunan ünvandakı obyektin qarşısında olmuş 27 ədəd kolu və 2 ədəd ağacı qanunsuz olaraq çıxarmışdır.

Faktla bağlı Gəncə şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 259.1 (meşələrdə və ya xüsusi mühafizə olunan təbiət ərazilərində ağacların, kolların və ya digər yaşıllıqların qanunsuz kəsilməsi xeyli miqdarda ziyan vurduqda) maddəsi ilə cinayət işi başlanaraq istintaqın aparılması Gəncə şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat idarəsinə tapşırılmışdır.

Hazırda cinayət işi üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

# Tarxini öyrənib ibrət götürənlər və gələcək nəsillərə ötürənlər uduzmaz

***Vətənpərvərliyi, təssübkeşliyi və zəhmətsevərliyi ilə seçilən, özünəməxsus yaradıcılıq üslubuna malik olan, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist Cabir Alpoğlu Albantürkün poeziyası, publisistik yazıları, tarixi səpkidə olan tədqiqatları, xüsusilə də doğulub boya-başa çatdığı Quba rayonu Alpan kəndinin keçmişi və bu günü ilə bağlı apardığı araşdırmalar həm məzmun, həm də ifadə tərzi baxımından diqqəti cəlb edir, maraq doğurur.***

"Qədim Alpan və albanlar", "Yaralı varlığımız" və "Üçüncü nöqtə" adlı kitabların, onlarla publisistik və elmi məqalənin müəllifi olan C.A.Albantürkün oxuculara təqdim etdiyi yeni kitabı - "Alpan türk yurdu" - təkcə müəllifin yaradıcılıq uğuru kimi deyil, həm də Azərbaycan tarixinin, xüsusilə Qafqaz Albaniyası, o cümlədən onun tərkib hissələrindən biri olan Alpan kəndinin tarixinin öyrənilməsi və təbliği istiqamətində atılan əhəmiyyətli addım kimi qiymətləndirilməlidir.

Elmi-kütləvi nəşr olan "Alpan türk yurdu" kitabında yer alan materialları şərti olaraq üç hissəyə bölmək olar: 1) Qafqaz Albaniyasının tarixi kontekstində Alpanın tarixi keçmişi ilə bağlı olan elmi və elmi-publisistik məqalələr, 2) Alpan kəndinin müxtəlif aspektlərdən tərənnüm olunduğu ədəbi nümunələr, 3) erməni faşizminə qarşı müharibədə iştirak etmiş alpanlıların cəbhə yolunun əks olunduğu materiallar. Bir də ki, topluya yazıları daxil edilən hər müəllifin yazı üzlublarına, mövzuya yanaşma tərzlərinə toxunmadan müxtəlif məqalələrinin təqdim olunması ayrıca bir rəngarənglik və elmi, ədəbi səviyyələr nümayişi sərgiləyir.

Məlumdur ki, Alpan kəndi, onun tarixi və onomastikası ilə bağlı məsələlər Qafqaz Albaniyası tarixini öyrənən tədqiqatçıların həmişə diqqət mərkəzində olmuşdur. Onu da vurğulamaq lazımdır ki, qeyd olunan tədqiqatçıların sırasında məsələyə qeyri-obyektiv yanaşan, tarixi fakt və reallıqları məqsədyönlü şəkildə təhrif edən, türklərin bu coğrafiyada aborigen deyil, sonradan gəlmə olduqları "sübut edənlər" də vardır. Onlar qeyri-elmi yanaşmalardan istifadə edərək, tarixi həqiqətləri saxtalaşdırmaq yolu ilə hərəkət etsələr də, əldə etdikləri "uğurlar" qısaömürlü olur, ortaya çıxardıqları "elmi nəticələr" obyektiv tarixi faktların kölgəsində sabun köpüyü kimi əriyərək buxarlanır.

C.A.Albantürkün hazırladığı "Alpan türk yurdu" kitabı, obyektiv fakt və arqumentlərə əsaslanan digər elmi əsərlər kimi, elmi yaradıcılığın prinsip və qanunauyğunluqlarını əldə rəhbər tutaraq, elmin inkişafına öz töhfəsini verən tədqiqatçıların mövqelərini nə qədər gücləndirirsə, tarixi həqiqətləri saxtalaşdırmaq və təhrif etmək yolu tutanların mövqelərini bir o qədər zəiflədir.

Kitabın hazırlanması prosesinə məntiqi və sistemli yanaşan müəllif bilavasitə Alpan kəndinin tarixi ilə bağlı işıq üzü görən araşdırmalarla yanaşı, öyrənilən elmi problemlərin ümumalban tarixi kontekstində qiymətləndirildiyi tədqiqatlara da müraciət etmişdir. Kitabda Qafqaz Albaniyası, onun tarixi coğrafiyası, tarixi inkişafının müxtəlif mərhələləri, etnik tərkibi, qədim və orta əsrlərdə Cənubi Qafqazda və Ön Asiyada cərəyan edən hərbi-siyasi proseslərdə iştirakı ilə bağlı zəngin məlumatlar və tarixi mənbələrdən götürülmüş konkret faktlar yer almışdır. Qeyd olunan məlumat və faktların müqayisəli və sistemli təhlili Azərbaycan ərazisinin, o cümlədən Alpan kəndinin qədum türk yurdu, ümumtürk tarixinin və mədəniyyətinin əhəmiyyətli bir hissəsi olduğunu sübut edir.

C.A.Albantürkün hazırladığı kitabda Qafqaz Albaniyasının qədim və orta əsrlər tarixi ilə bağlı məsələlərdən bəhs edən və linqvistik materialların təhlilinə əsaslanan elmi məqalələrin yer alması təqdirəlayiq haldır. Tədqiqatlarına müraciət olunan müəlliflər müxtəlif metodlardan istifadə edərək, onomastik vahidlərin təhlili əsasında Qafqaz Albaniyasının etnik tərkibi ilə bağlı meydana çıxan suallara cavab verməyə çalışır, qədim və orta əsrlərdə ölkə ərazisində yaşayan əhalinin əsas hissəsinin türkdilli tayfalara mənsub olduğunu sübut edirlər. Habelə, kitabda yer alan etnoqrafik materiallar, milli bayramların keçirilməsi ilə bağlı Alpan kəndində mövcud olan adət və ənənələr, əhalinin məişəti və dəyərlər sistemi də bu kəndin türk dünyasının bir parçası olduğuna şübhə yeri qoymur.

C.A.Albantürkün "Alpan türk yurdu" kitabı-toplusu Alpan kəndinin tarixi inkişaf mərhələləri, keçmişi ilə bu günü arasında körpü salmaq baxımından da əhəmiyyətlidir. Belə ki, kitaba daxil edilən materialların xronoloji çərçivəsi qədim və orta əsrlər ilə məhdudlaşmır, Alpan kəndinin yeni və ən yeni dövr tarixini əhatə edən məsələlər də, hadisələrin və proseslərin inkişafına dialektik yanaşma sərgiləyən müəllifin diqqətindən kənarda qalmamışdır. Bu baxımdan Quba xanlığı, Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalı və bu işğala qarşı mübarizə, XX əsrin əvvəllərində Azərbaycanda cərəyan edən siyasi proseslər və xalqlararası münasibətlər, sovet dövrünün və müstəqillik illərinin reallıqları və bütün bu hadisə və proseslərdə Alpan kəndinin və alpanlıların yerini və rolunu müəyyənləşdirməyə imkan verən tarixi faktlar, elmi araşdırmaların nəticələri, ayrı-ayrı şəxslərin xatirə və təəssüratları, bu kənddə doğulub-böyüyən, Azərbaycanın ictimai-siyasi, hərbi, elmi, ədəbi-bədii, sosial-iqtisadi həyatında iştirak edən şəxslər haqqında bioqrafik məlumatlar, onların fəaliyyəti ilə bağlı müxtəlif səpkili materiallar diqqəti cəlb edir və hesab etmək olar ki, gələcək nəsillərin də marağına səbəb olacaqdır.



Tarixin müxtəlif dövrlərində azərbaycanlılar öz yurdunda, ulu əcdadlarının miras qoyduğu torpaqlarında erməni işğalı, hiyləgərliyi və namərdliyi ilə qarşılaşmış, qurbanlar vermiş, ermənilərdən bir alət kimi istifadə edən böyük güclərin məkrli oyunları nəticəsində parçalanmış və vətən torpaqlarının bir hissəsi yadellilərin nəzarətinə keçmişdir.

Ümumilikdə, Cabir Alpoğlu Albantürkün hazırladığı "Alpan türk yurdu" kitabı tarixi, etnoqrafik, ədəbi-bədii baxımdan, xalqımızın tarixi yaddaşını qoruyub saxlamaq cəhətdən əhəmiyyətli bir işdir, müəllifin diqqət mərkəzinə çıxardığı məqamların hər birini gələcəkdə ayrıca tədqiqat obyektinə çevirmək mümkündür və bu kitabın materialları qeyd olunan istiqamətdə yeni-yeni tədqiqatların aparılmasında müsbət rol oynaya bilər.

***Toplunun elmi redaktoru, tarix üzrə fəlsəfə doktoru, dosent***
***Aqil Şahmuradov***

# Birinci doza peyvənd olunanlar qapalı məkanlara belə buraxılacaq



*Oktyabrın 1-dək "CheckApp" mobil tətbiqi üzərindən həyata keçirilən yoxlama zamanı COVID-19 pasportu əldə etmiş vətəndaşlarla yanaşı, immunitet sertifikatı olan və COVID-19 virusuna qarşı 1-ci doza vaksin sertifikatı olan vətəndaşlar da ictimai iaşə müəssisələrinə, mehmanxanalara və iri ticarət mərkəzlərinə daxil ola bilərlər.*

Bu barədə Unikal.org-a Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən məlumat verilib.

Yoxlanış zamanı COVID-19 pasportunu, 1-ci doza vaksin sertifikatını və immunitet sertifikatını elektron şəkildə təqdim etmək istəyən vətəndaşlar "myGov" şəxsi kabinetlərindən qeyd edilən sənədləri açа və ya telefonuna yükləyərək göstərə bilərlər.

"myGov" mobil tətbiqini "iOS" və "Android" əməliyyat sistemi istifadəçiləri aşağıdakı linklərdən yükləyə bilərlər:

- "Android"
- "iOS"

Vətəndaşlar COVID-19 pasportu və sertifikatları, həmçinin e-TƏBİB və its.gov.az portalından təqdim edə bilərlər. Bu zaman vətəndaşlar ən yeni sənədin təqdim olunduğuna əmin olmalıdırlar.

Qeyd edək ki, "CheckApp" mobil tətbiqi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzi (EHİM) tərəfindən yaradılıb. Mobil tətbiq qurum və müəssisələrin icaze.e-gov.az portalı üzərindən müəyyən edilmiş səlahiyyətli şəxslərinin istifadəsi üçün nəzərdə tutulub.

# "Vətənpərvərlik tərbiyəsi haqqında" qanun layihəsi hazırlanır

***"Vətənpərvərlik tərbiyəsi haqqında" yeni qanun layihəsi hazırlanır. Ola bilər ki, iş prosesində qanun layihəsinin adı ilə bağlı bir qədər də dəqiqləşdirmələr aparılsın.***

Bunu "Unikal"a açıqlamasında Milli Məclisin Elm və Təhsil komitəsinin sədri Bəxtiyar Əliyev deyib.

Komitə sədri bildirib ki, vətənpərvərlik çox mühüm bir məsələdir.

"Gənclərimizin yüksək vətənpərvərlik səviyyəsini 44 günlük Vətən Müharibəsi zamanı gördük. Cənab Prezident İlham Əliyev də xüsusi qeyd etdi ki, bu qələbədə hər kəsin payı var. Amma gənclərimiz bu qələbənin əldə edilməsində çox böyük şücaət və qəhrəmanlıq göstərdilər. Təbii ki, bu yüksək qiymətləndirilir. Bu istiqamətdə bundan sonra da işlərin gücləndirilməsi və qanunvericilik bazasının möhkəmləndirilməsi məqsədilə belə bir qanun layihəsinin hazırlanması fikri meydana gəldi. Bu istiqamətdə işlər görülür. Çatdıra bilsək işçi qrupnun yaradılması nəzərdə tutulur ki, qanun layihəsi müvafiq təşkilatlarla bir yerdə hazırlansın, Milli Məclisə və o cümlədən komitəyə təqdim olunsun", - deyə B.Əliyev qeyd edib.



*Hüseyn*

# Ürəklərdə yaşayan şərəfli ömür sahibi

***Lənkəran rayonunun Darquba kəndində dünyaya göz açmış Eşqin Hamlet oğlu Cəfərzadənin ömür yolu 23 il oldu. Qaldı ki, şərəfli, örnək sayılası bir həyat yaşadı Eşqin. O, torpaq uğrunda canından keçdi, ürəkdən bağlandığı Vətənin yaşaması naminə həyatını qurban verdi. Adı tarixə qızıl hərflərlə yazılan qəhrəman oğluna xalq qəlbində əbədi heykəl ucaltdı. Bundan sonra da illər, əsrlər keçəcək şəhidlik zirvəsindən boylanan Eşqinin az yaşında etdikləri ilahi bir məhəbbətə dönüb milyonlara Vətən sevgisindən nur paylayar.***

Fəqət, özündən sonra bizlərə gözəl dünya naminə saf mənəvi dəyərlər qoyan Eşqin Cəfərzadə özünü dərk edən gündən yalnız xeyirxah əməllərə can atır. Yaşadığı el-obada ona hörmət gətirən də xalqına sonsuz məhəbbəti, düzlüyü, mərdliyi olur. O, 2015-ci ildə həqiqi hərbi xidmətə yola düşəndə qoyduğu yaşına uyuşmayan xoş əməllərin sayı bilinmirdi.

Eşqin Daşkəsəndə əsgəri borcunu yerinə yetirməli olur. Çətin anda Vətən torpağına canı bahasına dayaq durmağı özünə şərəf bilən igid əsgər doğma Azərbaycanın sərhədlərini göz-bəbəyi kimi qoruyur. Cəbhə xəttində dəfələrlə məqam düşdükcə öz bədnam hərəkətlərini həyata keçirmək istəyində olan azğınlaşmış nankor erməni dığaları ilə üzə gəlir.' Vətəninin qeyrətini hər şeydən üstün tutan igid əsgər hər dəfə onların bu xəbis niyyətlərini ürəyində qoyur. Əsgər yoldaşlarına da deyir ki, Vətən qorumaq bizim müqəddəs borcumuzdur. Eşqinin ermənilərə olan sonsuz nifrəti bir daha xidmət etdiyi hərbi hissədə onu sevdirir. Həm də Vətəninə sədaqətini, cəsurluğunu, çevikliyini, etibarlığını nəzərə alıb onu manqa komandiri seçirlər.

Vətən sevdalısı Aprel döyüşlərində sözün həqiqi mənasında tarix yazır. Belə ki, Lələ-təpə, Talış kəndində düşmənin çoxsaylı canlı qüvvəsini, saysız-hesabsız texnikasını məhv etməklə xüsusi rəşadət göstərir. Yenə də dığalara qarşı olan nifrəti azalmır. Və işğal edilən Qarabağın hər qarışının, öldürülən hər bir Azərbaycanlı vətəndaşının qisasını düşməndən alan günü gözləyir...

Həqiqi hərbi xidmətdən sonra Eşqin doğma kəndində gözəl həyat naminə çalışır. Gördüyü faydalı, elinə gərəkli işləri ilə Vətənini, xalqını, dövlətini sevən əsl vətənpərvər gənc kimi tanınır. İkinci Qarabağ müharibəsi başlanan günü, canından artıq sevdiyi Vətənə cəsur oğullar gərək olduğu məqamda silaha sarılıb düşmənin üstünə gedir. Hadrutda, Suqovuşanda, Cəbrayılda, Zəngilanda, Füzulidə, Qubadlıda ağır müharibə meydanların qalibi olur. Erməni quldurlardan arzuladığı intiqam və qisasını almaqla rahatlıq tapır. Azərbaycanın üçrəngli ay-ulduzlu qələbə bayrağı azad olunan Vətən



torpaqlarında dalğalananda özünü dünyanın ən xoşbəxt insanı sayır Eşqin. 21 oktyabrda Qubadlıda şəhid olan günü də düşmənlə son nəfəsə qədər mübarizə aparır. Həyatını Vətəninə verməklə əbədiyyət dünyasında şərəfli bir ömür qazanır...

Bəli, Vətən torpağının azadlığı uğrunda özünü fəda edib şanlı tarix yazan bütün şəhidlər kimi Eşqin də xalqının ən əziz övladı olaraq adı nəğməli dillərdən düşmür. Dövlət də öz igid oğlunu unutmur. Ölümündən sonra ona verilən "Vətən uğrunda", eləcə Füzuli, Cəbrayıl, Qubadlı döyüşlərinə görə medallar bunun canlı nümunəsidir.

*Zəfər Orucoğlu, AJB üzvü*



# 10 hektardan artıq sahələrə subsidiyalar veriləcək

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanla təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb. Fərmana əsasən, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rola malik olan bitkilər üzrə 10 hektardan artıq əkin sahələrinə əkin subsidiyaları 3 il ərzində aqrar sığorta olunmaqla veriləcək.***

Unikal.org xəbər verir ki, sözügedən dəyişiklik, ölkənin ərzaq təhükəsizliyində və ixrac yönümlü istehsalda mühüm əhəmiyyət daşıyan məhsullara aid olacaq. Hər il üzrə həmin məhsulların siyahısı Aqrar Subsidiya Şurası tərəfindən müəyyən ediləcək.

Qeyd edək ki, Azərbaycanda dövlət dəstəyi ilə aqrar sığorta mexanizmi ölkənin kənd təsərrüfatına dəstək, aqrar sahəni təhlükəsiz biznes sektoruna çevrilməsi və bu sahəyə yatırılan böyük həcmdə investisiyaların etibarlı qorunması məqsədilə tətbiq edilir. Tətbiqindən keçən qısa müddətdə aqrar sığortadan ölkənin bir çox rayonunda istifadə edilməyə başlanıb. Qlobal iqlim dəyişiklikləri və təbii fəlakətlərin ən çox kənd təsərrüfatı istehsalçılarına risklər yaratdığı nəzərə alındıqda bu sahədə dövlət dəstəkli sığortanın tətbiqi və fermerlərdə sığorta vərdişlərinin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Yeni Fərmanın əhatə etdiyi təsərrüfatların sayının ölkə üzrə ümumi fermerlərin və təsərrüfatların cəminin cüzi qismini təşkil etməsi nəzərdə tutulur. Ölkə üzrə orta rəqəmləri əsas götürsək, bir hektar taxıl sahəsinin sığorta haqqı regionlar üzrə əsasən 8-12 manat arasında dəyişir ki, bu da əkin subsidiyasının cüzi hissəsini təşkil edir. Başqa sözlə, bu yenilik fermer və aqrar təsərrüfatlara əlavə ciddi maliyyə öhdəliyi yaratmayacaq.

# Ünvanlı dövlət sosial yardımın məbləği artdı

***2021-ci ilin avqust ayında orta hesabla 1 ailəyə ödənilən ünvanlı dövlət sosial yardımın (ÜDSY) məbləği artaraq 233,4 manatdan 262,5 manata çatıb.***

Unikal.org xəbər verir ki, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondu (DSMF) məlumat yayıb.

Qurumdan qeyd edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,5% artım deməkdir.

# İranla Ermənistan Zəngəzur dəhlizinə alternativ yol çəkməyi planlaşdırır



***Ermənistanın xarici işlər naziri Ararat Mirzəyan iranlı həmkarı Hüseyn Əmir Abdullahian ilə telefonda danışıb.***

Onlar bir-birini yeni vəzifəyə keçməkləri münasibəti ilə təbrik ediblər. Bundan başqa, tərəflər “Fars körfəzi-Qara dəniz” nəqliyyat dəhlizinin açılışını müzakirə edib. Dəhliz Çin və Hindistan mallarının İranın Bəndər-Abbas limanına çatdırılmasını, oradan avtomobil və dəmir yolu xətti vasitəsilə Ermənistan və Gürcüstana çatdırılmasını nəzərdə tutur. Gürcüstandan isə konteynerlərin dəniz yolu ilə Bolqarıstan və Yunanıstana aparılması planlaşdırılır.

Rəsmi Yerevan və Tehran “Fars körfəzi-Qara dəniz” dəhlizini Azərbaycanla Türkiyəni, qlobal miqyasda isə Çin, Pakistan və Mərkəzi Asiya ölkələrini Avropa ilə birləşdirəcək Zəngəzur dəhlizinə alternativ görünür.

# "Taliban" Pəncşirdə hərbi əməliyyata başlayıb - KİV

***“Taliban” hərəkatının silahlıları Əfqanıstanın şimalında yerləşən Pəncşir əyalətindəki müqavimət qüvvələrinin mövqelərinə kütləvi zərbələr endirib.***

Azvision.az xəbər verir ki, bu barədə ölkənin “Bakhtar” agentliyi məlumat yayıb.

”Əməliyyat zamanı iki səhra komandiri də daxil olmaqla doqquz silahlı öldürülüb, xeyli miqdarda silah-sursat ələ keçirilib”, - hərbi mənbədən bildirilib.

“Taliban”ın Dərbənd-Qarani, Gülbahar və Şatal bölgələrində qarşı tərəfin 11 atəş xəttini məhv etdiyi açıqlanıb.

Milli müqavimət qüvvələri isə mövqelərin ələ keçirilməsi ilə bağlı məlumatı təkzib edib. Qeyd olunub ki, son 24 saat ərzində taliblər Pəncşirə bir neçə dəfə hücuma keçsələr də, məğlub olublar.

# Ehtiyatda olan erməni hərbçilər təlimə çağırıldı

***Ermənistanda ehtiyatda olan hərbçilərin növbəti toplanışı baş tutacaq.***

“Unikal” Ermənistan KİV-nə istinadən xəbər verir ki, bu barədə hökumətin iclasında qərar verilib.

Hərbi toplanış sentyabrın 15-də başlayacaq və dekabrın 15-nə qədər davam edəcək. Prosesə 869 vətəndaş, o cümlədən, 576 sıravi, 107 gizir və 186 zabit cəlb olunacaq.

Xatırladaq ki, avqustun 25-dən noyabrın 25-nə qədər də Ermənistanda hərbi toplanış baş tutub.

# "Terrorçu haradadırsa, hədəfimiz oradır" - Hulusi Akar

***”Ən önəmli vəzifəmiz terrorla mübarizədir”.***

Unikal.org ”DHA”ya istinadən xəbər verir ki, bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar söyləyib.

”Ölkəmizin və millətimizin birliyi, bütövlüyü, suverenliyi və müstəqilliyi, xalqımızın və sərhədlərimizin təhlükəsizliyi üçün sonuna qədər mübarizə aparacağıq. Ən önəmli vəzifəmiz terrorla mübarizədir. Terrorçu haradadırsa, hədəfimiz oradır. Ən son terrorçu zərərsizləşdirilənə qədər davam edəcəyik. Millətimizi terror bəlasından xilas edəcəyik”, - deyə nazir bildirib.

***Ağarza Elçinoğlu***

# Ermənistan və tərəfdaşlarına növbəti “göz dağı”: "TurAz Şahini - 2021” başlayır

***Azərbaycan Hərbi Hava Qüvvələrinin heyəti və döyüş vasitələri Türkiyədə keçiriləcək ”TurAz Şahini - 2021” təlimlərində iştirak edəcək. “TurAz Şahini - 2021” birgə taktiki-uçuş təlimləri Azərbaycan ilə Türkiyə arasında illik hərbi əməkdaşlıq planına əsasən, hər iki qardaş ölkənin pilotlarının, texniki heyətin və aviasiya vasitələrinin cəlb olunması ilə Konya şəhərində yerləşən aviabazada keçiriləcək.***

**Təlimlərin hüquqi bazası**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci il dekabrın 24-də Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında “TurAZ Şahini” təlimləri üçün Sahib Ölkə dəstəyinə dair 2015-ci il avqustun 14-də Bakı şəhərində və sentyabrın 18-də Ankara şəhərində imzalanan “Anlaşma Memorandumu”nu təsdiq etməklə Azərbaycan Hərbi Hava Qüvvələrinin heyət və vasitələrinin mütəmadi olaraq təlimlərdə iştirakına icazə verdi.



**Konya aviabazası**

Konyada yerləşən aviabaza Türkiyə Hərbi Hava Qüvvələrinin tərkibinə daxil olan əsas aviabazalardan biridir. Bu aviabazada aşağıdakı hissə və bölmələr yerləşir:

- 131-ci “Sülh Qartalı” eskadrilyası, B-737-7ES AEW & C erkən xəbərdarlıq təyyarələri ilə silahlanıb.
- 132 -ci “Xəncərlər” eskadrilyası, F-16 “Fightning Falcon” (Döyüşən Şahin) təyyarələrinin Block 30/40/50 versiyaları ilə silahlanıb.
- “Solo Türk” pilotaj qrupu, F-16 “Fightning Falcon” Block 40 ilə silahlanıb.
- 134 -cü “Türk Ulduzları” eskadrilyası, NF -5A/B “Freedom” qırıcıları ilə silahlanıb.
- 135 -ci “Atəş” eskadrilyası, AS -532UL Cougar Mk.1+ helikopterləri ilə silahlanıb. Axtarış və xilasetmə funksiyalarını da yerinə yetirir.

**Təlimlərin tarixi**

“TurAZ Şahini” təlimləri 2015-ci ildən keçirilir. Azərbaycanın Hərbi Hava Qüvvələrinin ölkəmizin sərhədlərindən kənarda qatıldığı ilk manevr kimi tarixə düşən “TurAZ Şahini - 2015” təlimləri Türkiyənin Konya şəhərində keçirilmişdi. Türkiyə HHQ-si bu təlimlərə F-16 və F-4E 2020 qırıcıları, E-7T (HİK) erkən xəbərdarlıq və idarəetmə təyyarəsi, “Eurocopter AS532 Cougar” və UH-1H helikopteri ilə qatılmışdı. Azərbaycan Hərbi Hava Qüvvələri isə MİQ-29 qırıcıları, SU-25 hücum təyyarələri və Mi-17 helikopteri ilə təmsil olunurdu. 106 hərbçimizin iştirak etdiyi təlimlərin əsas məqsədi iki ölkənin HHQ-ləri arasında qarşılıqlı əlaqəni və birgə uçuş imkanlarını araşdırmaqdan, döyüşə hazırlıq səviyyəsinin yüksəldilməsindən ibarət idi. Azərbaycan Hava Qüvvələrinə aid döyüş təyyarələri ilk dəfə məhz bu təlimlər çərçivəsində Ermənistanın Türkiyə ilə sərhədləri istiqamətində uçuşlar keçirdi. Azərbaycan pilorları ilk dəfə NATO qırıcıları ilə və erkən xəbərdarlıq təyyarələrinin iştirakı ilə birgə təlimlərdə iştirak etdilər.

Sonrakı illərdə də təlimlər mütəmadi olaraq keçirilib. “TurAZ Şahini - 2016” birgə taktiki-uçuş təlimlərində Azərbaycan Hərbi Hava Qüvvələri 3 ədəd MiQ-29 qırıcı, 3 ədəd Su-25 hücum təyyarələri ilə, “TurAZ Şahini - 2018” birgə taktiki-uçuş təlimlərində isə 2 ədəd “MiQ-29” qırıcı və 3 ədəd “Su-25” hücum təyyarələri iştirak edib.

Bu il keçirilən təlimlərdə iştirak edəcək Azərbaycan HHQ-nin 2 ədəd MiQ-29 və 2 ədəd Su-25 döyüş təyyarəsi sentyabrın 1-də Türkiyəyə yola düşdü. Birgə təlimlərin sentyabrın 17-dək davam edəcək.

**Təlimlərin ardıcıllığı və mümkün ssenarisi**

Təlimlərdə iştirak edən pilotlar ilkin mərhələdə əvvəlcə müxtəlif brifinqlərdə və nəzəri təlimlərdə iştirak edəcək, hava şəraiti və digər texniki məsələləri müzakirə edəcək, sonra isə ətrafı tanıma uçuşları keçirəcəklər. Yalnız bu prosedurlardan sonra, taktiki-uçuş təlimlərinin planına əsasən, pilotların verilmiş hündürlükdə marşrut üzrə birgə uçuşları yerinə yetirəcəyi gözlənilir. Təlimlər zamanı şərti düşmənin hava hücumundan müdafiə vasitələrinə, vacib yerüstü hədəflərinə zərbələr endirməklə bərabər, rəqibin qırıcı aviasiyasının zərbələrindən yayınmaq üzrə manevrlər icra edəcəyi gözlənilir. Pilotlu və pilotsuz aviasiyanın qarşılıqlı əlaqəsiinin təşkilinə dair yeniliklərin tətbiqi mümkündür.

**Təlimlərin əhəmiyyəti**

Həm Vətən Müharibəsindən əvvəl, həm də sonra Azərbaycan və Türkiyə Silahlı Qüvvələri qədər birgə təlim keçirən digər tərəfdaş ölkələr tapmaq mümkün deyil. “Şuşa və Bakı Bəyannamələri” isə birgə və çoxtərəfli təlim proseslərini bir qədər də intensivləşdirib. Bu təlimlər ilk növbədə qardaş ölkələrin hərbi qulluqçularını bir-birinə daha da yaxınlaşdırır, dostluq-qardaşlıq münasibətlərini gücləndirir və birgə fəaliyyət potensialını artırır.

Hər iki ölkənin uçuş, texniki və təminat heyətləri təlimlər sayəsində böyük praktiki təcrübə də qazanır. Dünyanın çox az ölkəsində movcud olan AWAKS tipli erkən xəbərdarlıq təyyarəsi ilə qarşılıqlı əlaqədə vəzifələrin icra edilməsi, pilotlarımız üçün unikal imkandır.

Hər iki ölkənin silahlı qüvvələrinin gücünə güc qatan bu təlimlərdə iştirak etmək, davamlı olaraq döyüş imkanlarını artırmaq niyyətində olan Azərbaycan Silahlı Qüvvələri üçün çox vacibdir. “TurAZ Şahini-2021” məğlubiyyətə məruz qaldığı halda belə qırıcılarını havaya qaldırmağa cəhd etməyən Ermənistan və onun tərəfdaşları üçün növbəti “göz dağı” olacaq.

Hərbi pilotların döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması üçün bu təlimlər müstəsna əhəmiyyətə malikdir. Odur ki, bu tip birgə təlimlərin gələcəkdə keçirilməsi və digər tərəfdaşların da bura cəlb edilməsi gözlənilədir.

***Ədalət Verdiyev, hərbi ekspert***

# Bizə belə milli komanda lazım deyil!



***DÇ-2022-nin seçmə mərhələsində millimiz uğursuz, daha doğrusu, rüsvayçı nəticələr göstərməkdə davam edir.***

Canni de Byazinin rəhbərlik etdiyi komanda dünən səfərdə Lüksemburqa da uduzub (1:2). Beləliklə, 3 turdan sonra komandamızın hesabında 1 xal belə yoxdur.

Bu, Avropa zonasında mübarizə aparan 55 milli arasında ən aşağı göstəricilərdən biridir. Azərbaycanla yanaşı bizimlə eyni qrupda yarışan İrlandiya, Cəbəllütariq, Andorra, San Marino, Lixtenşteyn, eləcə də hələlik 2 matç keçirən Kosovo, Litva və Estoniya da xal qazana bilməyib.

Beləliklə, yalnız 9 komanda seçmə mərhələdə xal üzünə həsrət qalıb. Bu yerdə yalnız onu əlavə etmək qalır ki, bizə düşmən ölkə olan Ermənistan Almaniyanın da yer aldığı qrupda 9 xalla liderdir. Digər qruplarda oynayan qonşu Gürcüstan, Farer adaları, Moldova belə xal toplayıb. Cırtdan ölkə Maltanın isə 4 xalı var. Sadalanan bu ölkələrin hər biri ilə müqayisədə Azərbaycanda futbola, o cümlədən milli assosiasiya və milli komandalara daha yüksək şərait yaradılıb. Hər il dövlət şirkəti SOCAR-ın xətti ilə AFFA-ya 20 milyon manatdan çox pul ayrılır. İtaliyalı Canni de Byazinin rəhbərlik etdiyi məşqçilər korpusu ilə bahalı müqavilələr imzalanıb. Lakin bütün bunların müqabilində nəticə yenə yoxdur. Sıfır xal...

Elə isə sual olunur: bu milli komanda seçmə mərhələdə nə üçün və kimin üçün oynayır? Əgər nəticə üçünsə, bu qədər pulun müqabilində yenə sonuncu yerdəyik. Yox, əgər yalnız AFFA üçünsə, onda bu milli komandanın Azərbaycan xalqına, azarkeşinə nə aidiyyatı var? Amma məqsəd nəticə yox, yalnız iştirakdırsa, onda SOCAR hər il milyonlarla pulu hansı məntiqlə futbol qurumuna ayırır? Heç vaxt komandamıza uğur qazandırmayan faydasız xarici məşqçilərə bu qədər pul niyə, hansı əsas və məntiqlə xərclənir? Biz də başlayaq kasıb ölkələr kimi futbola az pul ayırmağa və turnirlərdə nəticə yox, yalnız iştirak üçün oynayaq. Fərqi nədir ki, pul çox olanda da sıfır xal olur. Bəlkə pul olmayanda futbolçular özlərində təpər, məşqçilər də vicdan tapıb, ölkə xatirinə heç olmasa 1-2 xal qazana.

İndiki halda isəg Biz Canni de Byazi kimi qorxaq, anlaşılmaz heyət seçən, yaxud federasiyanın diqtəsi ilə işləyən məşqçiylə yola davam edirik. Görün, nə vəziyyət yaranıb ki, bu futbol "ağıllısı" Mahir Emreli, Rəhim Sadıxovu, Namiq Ələsgərovu ehtiyatda saxlayır. Mahiri eg Bu mövsüm Polşa "Legiya"sının heyətində avrokuboklarda 5 qol vuran futbolçumuzug

Belə futbol zehniyyətinə daha nə deyəsən?..

...Və nə qədər, nə vaxta qədər deyilməlidir ki, milli komandaya yerli məşqçi gətirilməlidir?

***Aydın BAĞIROV***

# Vaxtı açıqlandı - "Neftçi" - "Qarabağ" oyununun

***Premyer Liqada III turun oyun cədvəli açıqlanıb.***

Milli komandaların oyunları ilə əlaqədar fasilədən sonra keçiriləcək turun qarşılaşmalarının vaxtı və yeri dəqiqləşib. Mərkəzi görüşdə "Neftçi" "Qarabağ"ı qəbul edəcək. Ötən mövsümün iki ən yaxşısı sentyabrın 11-də üz-üzə gələcək.

Qeyd edək ki, turun bütün görüşləri "CBC Sport" telekanalı vasitəsilə canlı yayımlanacaq.



**Premyer Liqa**
**III tur**

11 sentyabr (şənbə)
"Sabah" - "Qəbələ"
"Bank Respublika Arena", 18:00
"Keşlə" - "Zirə"
"ASK Arena", 20:15

12 sentyabr (bazar)
"Səbail" - "Sumqayıt"
"ASCO Arena", 18:00
"Neftçi" - "Qarabağ"
"Bakcell Arena", 20:30

# Azərbaycan çempionatında "transfer pəncərəsi"nin müddəti uzadıldı

***Futzal üzrə Yüksək Liqada 2021-2022-ci il mövsümü üçün "transfer pəncərəsi"nin müddəti uzadılıb.***

"Unikal" Azərbaycan Futzal Federasiyasının saytına istinadən xəbər verir ki, iyulun 5-də açılan dövr oktyabrın 10-dək davam edəcək.

Azərbaycan çempionatının iştirakçıları oyunçuların transferini və qeydiyyatını əvvəlcədən qeyd edildiyi kimi, sentyabrın 22-dək deyil, daha 18 gün müddətində həyata keçirə bilərlər.

Qeyd edək ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın tələbinə uyğun olaraq yalnız 18 yaşdan yuxarı vətəndaşlar COVID pasportunu (vaksinasiya sertifikatı, xəstələnib sağalmış şəxslər üçün immunitet sertifikatı) göstərməklə idman zallarında məşq edə və ya oyun keçirə bilərlər.



# Cəbəllütariq, Andorra, San-Marino, Lixtenşteyn... - Azərbaycanın olduğu siyahı

***DÇ-2022-nin Avropa zonası üzrə seçmə mərhələsinin arxada qalan hissəsində yalnız 9 komanda xal qazana bilməyib.***

55 yığmanın mübarizə apardığı tsiklin uğursuzlarından biri də Azərbaycan millisidir.

Canni de Byazinin baş məşqçisi olduğu komanda bütün görüşlərdə minimal fərqlə uduzması ilə təsəlli tapa bilər. Amma istənilən halda, Portuqaliya (0:1), Serbiya və Lüksemburqla (hər ikisi 1:2) matçlar aktivimizə xal gətirməyib.

Uğursuz "doqquzluq"da olan yığmamızla eyni durumda olanlar müxtəlif sayda oyun keçirib. Cəbəllütariq (G) dörd, İrlandiya (A), Andorra, San-Marino (İ), Lixtenşteyn (J) üç, Kosovo (B), Litva (C) və Estoniya (E) iki qarşılaşmada uduzub.

Qeyd edək ki, A qrupunun xalsızları Azərbaycanla İrlandiya sentyabrın 4-də üz-üzə gələcək.

# Ronaldo rəqib futbolçuya şillə vurdu

***Portuqaliya millisinin kapitanı Kriştiano Ronaldo DÇ-2022-nin seçmə mərhələsində İrlandiyaya qarşı matçda (2:1) rəqib futbolçu Daru Oşinin üzünə şillə vurub.***

Qol.az xəbər verir ki, bu, 15-ci dəqiqədə İrlandiyanın qapısına penalti təyin olunan zaman baş verib. Belə ki, 36 yaşlı hücumçu topu penalti nöqtəsinə gətirdiyi vaxt Oşi topa toxunaraq onu hərəkət etdirib. Bundan sonra duyğularına hakim ola bilməyən Ronaldo rəqibinə üzünə əli ilə zərbə vurub. Görüşün baş hakimi oyunçulara qarşı heç bir sanksiya tətbiq etməyib.

Ronaldo isə dubl etdiyi oyunda penaltini düzgün yerinə yetirə bilməyib.

# "Qəbələ" futbolçusunu itirdi

***"Qəbələ" ciddi itki ilə üzləşib. Rüfət Əhmədov uzun müddət komandaya kömək edə bilməyəcək.***

"Unikal" "sportinfo"ya istinadən məlumat verir ki, gənc müdafiəçinin diz bağlarında problem aşkarlanıb.

U-21 yığmasına da dəvət alan 19 yaşlı oyunçunun ən azı 5-6 ay arası futbolsuz qalacağı dəqiqdir.

"Qəbələ"nin 200 min manat satış qiymət qoyduğu Rüfət Azərbaycan Premyer Liqasının ikinci turunda doğma meydanda "Keşlə" ilə qarşılaşmanın 87-ci dəqiqəsində zədələnərək, yerini Emil Səfərova verməli olub.

Əhmədovun dərdi bununla bitmir. O, koronavirusa da yoluxub və 2 həftəlik karantinə alınıb.

# PSJ Mbappeni Qətər əmirinin qərarı ilə satmayıb

***PSJ "Real"ın Kilian Mbappe üçün göndərdiyi təklifi Qətər əmiri Hamad Əl-Taninin qərarı ilə rədd edib.***

Qol.az xəbər verir ki, bu barədə "L'Equipe" məlumat yayıb. PSJ əvvəlcə Madrid təmsilçisinin təklifini nəzərdən keçirmək istəyib. Klub gələn yay 22 yaşlı hücumçunu azad agent kimi buraxmaqdansa, bu transferdən 200 milyon avro qazanmağın daha yaxşı olduğunu düşünüb. Lakin Qətər əmiri PSJ-nin hücum xəttində Lionel Messi, Kilian Mbappe və Neymar "3-lüy"ünü görmək istəyib. Buna görə də paytaxt təmsilçisi "kral klubu"nun təklifini rədd edib.

Qeyd edək ki, Mbappenin PSJ ilə müqaviləsi 2022-ci ilin iyunu başa çatır.

# "Ronaldonun Azərbaycana getməsinin mənası yoxdur" - Santuş

***Portuqaliya millisinin baş məşqçisi Fernandu Santuş komandanın kapitanı Kriştiano Ronaldonun DÇ-2022-nin seçmə mərhələsində yığmamızla oyun öncəsi cəzalı duruma düşməsinə münasibət bildirib.***

Qol.az xəbər verir ki, 36 yaşlı hücumçu dubl etdiyi İrlandiya ilə matçda (2:1) sarı vərəqə limitini doldurduğu üçün Azərbaycana qarşı oynamayacaq.

66 yaşlı mütəxəssis görüşdən sonra mətbuat konfransında Ronaldonun durumu ilə bağlı deyib: "Ronaldonun heyətdə qalıb-qalmayacağına qərar verəcəyik. 24, 25 oyunçumuz var. O, Azərbaycana getməyəcək, bunun heç bir mənası yoxdur".

Qeyd edək ki, Portuqaliya millisi sentyabrın 7-də Azərbaycanın qonağı olacaq.